Dr. Əbdüləziz ibn Abdullah əl-Hüseyn

# PEYĞƏMBƏRİMİZİ
*Allahın ona salam-duası olsun!*
# BİZƏ TANIDAN KİTAB

Tərcümə edən

*Əbu Zeyd Həbibli*





# PEYĞƏMBƏRİMİZİ
## (Allahın ona salam-duası olsun!)
# BİZƏ TANIDAN KİTAB

***Müəllif:***
Dr. Əbdüləziz ibn Abdullah əl-Hüseyn

***Tərcümə edən:***
Əbu Zeyd Həbibli

© Kitabın bütün hüquqları qorunur

بسم الله الرحمن الرحيم

# ❧ MÜQƏDDİMƏ ☙

Uca Allah buyurur: *“Sizə özünüzdən elə bir Peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir”* (ət-Tovbə, 128).

Səhabə Amr ibn As ﵁ demişdir: “Mənim nəzərimdə Peyğəmbərdən ﷺ daha sevimli və ondan daha dəyərli bir insan yoxdur. Ona qarşı olan hörmətim səbəbindən sağlığında ona doya-doya baxa bilmədim. Belə ki, məndən onu vəsf etməyimi istəsələr, bunu bacarmaram. Çünki ona doyunca baxa bilmirdim” (Müslim).

### ❖ Qərb alimlərinin sözləri:

• “Muhəmmədə “bəşəriyyətin xilaskarı” adını vermək lazımdır. Əgər o, bu gün dünyaya rəhbərlik etsəydi, problemlərimizi insanların həsrətində olduğu sülh və xoşbəxtliyi təmin edəcək şəkildə həll etməyə müvəffəq olardı” (İrlandiyalı alim Bernard Şou, “Həqiqi İslam” əsəri cild 1, nömrə 8, 1936-cı il).

• “Tarixin ən böyük şəxsiyyətlərini Muhəmmədlə müqayisə etməyə kim cəsarət edə bilər?” (Fransalı şair De Lamartin, “Türkiyə tarixi” əsəri, Paris, 1854-cü il)

• “Muhəmməd tarixdə həm dini, həm də dünyəvi cəhətdən ən yüksək və ən aşkar şəkildə uğur əldə edən yeganə şəxs olmuşdur. Məhz bu amilə görə o, “bəşəriyyət tarixinin ən nüfuzlu şəxsiyyəti” titulunu daşımağa daha layiqdir”. (Amerikalı alim Maykl Hart, “Dünyanın 100 ən nüfuzlu şəxsiyyəti”, Nyu York, 1978-ci il).

• “Tarix İslam peyğəmbəri Muhəmmədin etdiyi kimi, qısa bir müddət ərzində əxlaq normalarını yüksəldən və mənəvi prinsipləri dirçəldən ikinci bir islahatçı görməmişdir” (Şotlandiya tarixçisi Viliam Muir, “Muhəmmədin həyatı” əsəri).

• “Əgər insanların dəyəri əməllərinin dəyəri ilə ölçülürsə, o zaman Muhəmməd insanlıq tarixinin şahid olduğu ən böyük şəxsiyyətlərdəndir” (Fransalı həkim və tarixçi Qustav Lebon).

## ❖ Peyğəmbərlərin ağası ilə birlikdə

Tək olan Allaha həmd-sənalar, özündən sonra heç bir peyğəmbərin gəlməyəcəyi Elçiyə, onun ailəsinə, dostlarına və izi ilə yürüyən hər kəsə Allahın salam-duası olsun!

Peyğəmbərin ﷺ məscidinə və önündə durub namaz qılarkən Quran ayələrini tilavət etdiyi mehrabına nəzər yetirərkən bir an belə gözüm yorulmazdı. Onun oturduğu və namaz qıldığı yerə baxır, minbərinə nəzər yetirərək düşüncələrə dalırdım. Onun ﷺ sevdası məni Cənnət bağlarından bir bağçada – Peyğəmbərin ﷺ namazgahında səcdə etməyə sövq edərkən içimi bürüyən qorxu və dəhşət hissi keçirtdim. Çünki Rövzeyi-şərifi [1] heybət bürümüş, Peyğəmbər ﷺ məscidinin atmosferində isə sakitlik hökm sürürdü. Məscidin daxilində ora-bura baxa-baxa gücümü, qüvvətimi toparlayırdım. Mənimlə Peyğəmbərin evi arasında[2] yalnız bir neçə addım qalmışdı. Evinin qapısını döymək və onu görmək şərəfinə nail olmağı nə qədər arzu edirdim. Daima bu arzu ilə – onu görmək və onunla söhbət etmək sevdası ilə yaşamışam.

Kaş onun əshabından bir fərd olaydım,
Yaxud ən kiçik işini görən xidmətçi.
Onu xatırlayanda gözlərim yaşla dolur,
Qəlbə gəldikdə isə susuzluqdan yanır içim.

Sanki onun karvanında və yoldaşlarının arasında imiş kimi Mədinə şəhərini gəzdiyim zaman onun xəyalı məndən ayrılmırdı. Xatirələr selində boğulana qədər onun ətirli günləri və gül gecələri mənim xəyalımda canlandıqca sanki onunla ﷺ ünsiyyətin mehini hiss edirdim. Elə bu yerdən, bu gözəl məkandan, əmin-amanlıq diyarı olan bu ziyarətgahdan – Mədinə şəhərindən öz hisslərimi

---

[1] Rövzeyi-şərif – Peyğəmbərin ﷺ məscidində, hal-hazırda onun qəbri ilə minbəri arasında olan yerdir. Peyğəmbərimiz ﷺ bu yeri “Cənnət bağlarından bir bağça” adlandırmışdır.

[2] Peyğəmbərin ﷺ zamanında onun evi məscidinə bitişik idi. Daha sonralar məscid genişləndiyinə görə evi məscidin içində qaldı.

vərəq üzərində sətirlərə düzməyə başladım ki, oxuyan hər kəs burada baş verənlərin ecazkarlığından hiss etdiklərimi duya bilsin. Əslində, biz Peyğəmbərimiz Muhəmmədin ﷺ tərcümeyi-halına ona layiq olan bir şəkildə diqqət yetirsək, o ﷺ, sağlığında öz yoldaşları arasında olduğu kimi, bizim də qəlbimizdə yaşayar, habelə onun necə də ideal bir insan olduğunu və nümunəviliyin onun şərəfli üzünün parlaqlığını necə də artırdığını görərdik. Peyğəmbərimizin ﷺ həyatı imanın hər sahəsini əhatə edəcək genişlikdədir. Onun həyatını, vəsflərini tam yeni bir üslubda təqdim etmək və onun təşviq etdiyi xeyir qapılarını oxucunun göz önünə qoymaq qərarına gəldim ki, bununla da oxucu Peyğəmbərimizin ﷺ əxlaqını və həyatını özü üçün nümunə götürsün və ona tabe olsun.

Uca Allaha üzərimdə olan bütün nemətlərinə və bu işi mənim üçün asanlaşdırdığına görə şükür edir, əməllərimizi və həyatımızı bərəkətləndirməsini, habelə həyatımızın bütün sahələrində bəşəriyyətin ağası olan Muhəmmədə ﷺ gözəl bir şəkildə tabe olmağa və hər əmrinə boyun əyməyə bizləri müvəffəq etməsini diləyirəm.

**✍ Səni sevən və sənin üçün xeyir təmənni edən:**
***Əbdüləziz ibn Abdullah əl-Hüseyn***

❀ ❀ ❀

# ❧ Birinci hissə ☙

### ❖ Adı və nəsəbi

O, Muhəmməd ibn Abdullah ibn Əbdülmüttəlib ibn Haşimdir. Yəni Haşimin oğlu olan Əbdülmüttəlibin övladlarından Abdullahın oğlu Muhəmməddir ﷺ. Haşim isə Qureyş qəbiləsindəndir. Qureyş qəbiləsi ərəblərdən, ərəblər isə İbrahimin oğlu İsmayılın ﵇ zürriyyətindəndir. Ona da, peyğəmbərimizə də ən ali salam-dualar olsun! O, nəsəb baxımından insanların ən üstünüdür. Onun əşirəti ən şərəfli əşirət, qəbiləsi də ən üstün qəbilədir. Hətta düşmənləri belə onun əsil-nəcabətinin aliliyini etiraf edirdi.

***Peyğəmbərimizin ﷺ Quranda və səhih hədislərdə keçən adlarından bəziləri:***

- Muhəmməd – öyülən;
- Əhməd – tərifə layiq;
- Abdullah – Allahın qulu;
- Aqib – son elçi;
- Haşir – insanların hüzurunda hesaba çəkiləcəkləri şəxs;
- Mahi – küfr və şirki yer üzündən silmək üçün göndərilmiş elçi;
- Mütəvəkkil – daima Allaha təvəkkül edən;
- Xatəmun-nəbiyyin – peyğəmbərlərin sonuncusu;
- Nəbiyyul-məlahim – cəng peyğəmbəri.

Peyğəmbərimizin künyəsi isə Əbül-Qasim idi, yəni Qasimin atası.

### ❖ Uşaqlıq dövrü

Anası Əminədən sonra onu bir neçə gün Əbu Ləhəbin köləsi Suveybə əmizdirmişdir. Peyğəmbər ﷺ ömrünün sonuna qədər onun bu əməlini təqdir etmiş, ona hörmət bəsləmiş, hətta onu köləlikdən azad etmək istəmişdir. Lakin Əbu Ləhəb buna razı olmamışdır. Daha sonra onu Bəni Səd qəbiləsindən olan Həlimə əmizdirmişdir. Onun yanında – Bəni Səd qəbiləsi içində dörd ilə yaxın qaldı. Beləcə onun süd bacı-qardaşları oldu. Onlar elə öz əmisi Həmzə ibn Əbdülmüttəlib, əmisi oğlu Əbu Süfyan əl-Haris,

Əbu Sələmə əl-Məxzumi və Həlimənin Əbu Kəbşə ləqəbli Haris ibn Əbdülüzza adlı ərindən olan övladları Abdullah, Şeymə və Ənisədir.

Peyğəmbər ﷺ fil ilində (miladi 571-ci ildə), daha doğru rəyə əsasən, Rəbiül-əvvəl ayının 9-u, həftənin birinci günü Məkkə şəhərində dünyaya gəlmişdir. Əbu Qətadə ؓ rəvayət edir ki, Peyğəmbərdən ﷺ həftənin birinci gününün orucu barədə soruşduqda o belə demişdir: *"Bu mənim doğulduğum gündür"*.[1] İbn Qeyyim demişdir: "Onun ﷺ Məkkə şəhərində və fil hadisəsi baş verən ildə doğulmasına dair heç bir ixtilaf yoxdur". Peyğəmbər ﷺ yetim böyümüşdür. Belə ki, anası ona hamilə ikən atası Abdullah, altı yaşı olduqda isə anası Əminə vəfat etmişdir. Anasının vəfatından sonra onu babası Əbdülmüttəlib himayəyə götürdü. Səkkiz yaşı olduqda babasını da itirmiş və əmisi Əbu Talibin himayəsinə keçmişdir. Uca Allah onu ﷺ cahiliyyət dönəminin çirkabından qorumuşdur. Belə ki, ömründə bir dəfə də olsa, heç bir bütə təzim etməmiş və müşriklərin heç bir ayinində iştirakçı olmamışdır. Həmin ayinlərdə iştirak etməsi üçün çağırılmış, lakin o bundan imtina etmiş və Rəbbi onu qorumuşdur. Şübhəsiz ki, bu, Uca Allahın ona bir lütfü idi ki, onu bütün eyiblərdən uzaq tutmuş və ona gözəl əxlaq bəxş etmişdir.

### ❖ Peyğəmbərlik missiyası

Qırx yaşına çatdıqda Uca Allah ona peyğəmbərlik verdi, onu elçilik vəzifəsi ilə şərəfləndirdi və onu bütün insanlara – ərəbə və əcəmə peyğəmbər göndərdi. Peyğəmbərlik vəzifəsi verildikdən sonra Məkkə şəhərində on üç il qaldı, insanları tövhidə, tək Allaha ibadət etməyə səslədi və şirkdən çəkindirdi. Daha sonra Mədinə şəhərinə hicrət etdi və orada on il yaşadı. Mədinə şəhərində İslam dövlətini qurdu və insanlara dinin digər əhkamlarını öyrətdi. Sonra da altmış üç yaşında Uca Allahın rəhmətinə qovuşdu.

---

[1] Müslim.

## ❖ Ona ﷺ nazil olmuş kitab

Uca Allah bəzi elçilərinə və peyğəmbərlərinə kitablar nazil etmişdir. Belə ki, İbrahimə ﷷ səhifələr, Davuda ﷷ Zəburu, Musaya ﷷ Tövratı, İsaya ﷷ İncili və peyğəmbəri – Muhəmmədə ﷺ isə Quranı nazil etmişdir. Qurandan ona ilk nazil olan ayə Uca Allahın bu kəlamı idi: *"Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin kərəm sahibidir. O, qələmlə yazmağı öyrətdi. İnsana bilmədiklərini öyrətdi".*[1] Son nazil olan ayə isə Uca Allahın bu kəlamı idi: *"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim".*[2] Bu Quran bəndənin qəlbini Yaradana və onu yoxdan var edənə bağlayır. Onu oxuyan hər kəs şahid olar ki, bu kitab kainat sirlərindən – səmanın ənginliklərində, yerin və dənizin dərinliklərində baş verən qəribəliklərdən bəhs edir və elə şeyləri qeyd edir ki, həmin həqiqətlər yalnız indiki dövrdə müasir texnologiya və elmi tədqiqat və araşdırmalardan sonra ortaya çıxmışdır. On dörd əsr bundan öncə yazıb-oxumağı bilməyən bir insana bu cür dəqiq və incə məlumatların gəlib çatması hər bir ağıl sahibinə onu bəyan edir ki, bu kitab – Qurani-Kərim Uca Allahın kəlamı, Muhəmməd ﷺ isə Onun peyğəmbəridir. Uca Allah bu kitabı hər cür dəyişkənlikdən qorumuş və onu əvvəlki səmavi kitabları təsdiqləyən bir kitab etmişdir.

## ❖ Quranda yad edilməsi

Peyğəmbər ﷺ Quranda "Muhəmməd" adı ilə dörd yerdə yad edilmişdir. Həmin yerlər Ali-İmran surəsi 144-cü, əl-Əhzab surəsi 40-cı, Muhəmməd surəsi 2-ci və əl-Fəth surəsi 29-cu ayələrdir. Peyğəmbərin ﷺ "Əhməd" adı isə Quranda bir yerdə – əs-Saff surəsi 6-cı ayədə İsa peyğəmbərin ﷷ dili ilə zikr edilmişdir.

---

[1] Əl-Ələq, 1-5.
[2] Əl-Maidə, 3.

### ❖ Dini təbliğatı və Mədinə şəhərinə hicrəti

Peyğəmbər ﷺ Məkkə şəhərində on üç il qaldı və bu müddət ərzində insanları İslam dininə, tək və şəriksiz olan Allaha ibadət etməyə çağırdı. Məkkə müşriklərinin haqqa qarşı təkəbbürlükləri və inadkarlıqları artdıqda Uca Allah tərəfindən Peyğəmbərə ﷺ İslam dövlətini Mədinə şəhərində qurmağa və Uca Allahın dinini yer üzündə bərqərar etməyə izin verildi. Beləcə o ﷺ, Mədinəyə hicrət etdi və oraya peyğəmbərliyinin on üçüncü ili, Rəbiül-əvvəl ayının səkkizi, həftənin birinci günü daxil oldu. Peyğəmbərin ﷺ Mədinə şəhərinə hicrəti ilə Uca Allah İslam dinini izzətləndirdi və haqqın səsini uca etdi. Elə bu səbəbdən dolayı Ömər ibn əl-Xattab رضي الله عنه öz xilafəti dönəmində yanında olan digər səhabələr ilə birlikdə belə qərara gəldi ki, Peyğəmbərin ﷺ Mədinəyə hicrət etdiyi il müsəlman təqviminin başlanğıcı hesab edilsin və onlar öz yaşamlarında, yazılarında və digər işlərində məhz bu tarixdən istifadə etsinlər.

### ❖ Hərbi yürüşləri və savaşları

Peyğəmbər ﷺ insanlar arasında qan tökülməməsinə həris olan bir şəxsiyyət idi. O, rəhmət peyğəmbəri idi. Onun əsas amalı İslam nurunun yayılması və insanların öz Rəbinə düzgün şəkildə ibadət etmələri idi. O, insanlara qarşı mərhəmətində, döyüşlərə hazırlığında, qələbənin əldə edilməsi üçün görüləcək bütün işlərində, planlarında, uzaqgörənliyində dahi bir şəxsiyyət idi. Onun bəzi savaşları özünü müdafiə müharibələrinə bənzəyirdi. Onu pusquya salmaq istəyən düşməni elə öz pusqusunda ələ keçirirdilər. Peyğəmbər ﷺ şəxsən özü iyirmi beş döyüşdə iştirak etmişdir. Bu döyüşlərin və hərbi yürüşlərin ən mühüm olanları sırası ilə aşağıdakılardır:

1. Böyük Bədr savaşı: Hicrətin ikinci ili, Ramazan ayında baş vermişdir.
2. Uhud döyüşü: Hicrətin üçüncü ili, Şəvval ayında baş vermişdir.
3. Xəndək savaşı: Hicrətin beşinci ili, Şəvval ayında baş vermişdir.

4. Bənu Qureyzə: Hicrətin beşinci ili, Zilqədə ayında baş vermişdir.
5. Hudeybiyyə sülhü: Hicrətin altıncı ili, Zilqədə ayında baş vermişdir.
6. Xeybər savaşı: Hicrətin yeddinci ili, Məhərrəm ayında baş vermişdir.
7. Mutə döyüşü: Hicrətin səkkizinci ili, Cumədəl-ulə ayında baş vermişdir.
8. Məkkənin fəthi: Hicrətin səkkizinci ili, Ramazan ayında baş vermişdir.
9. Huneyn və Taif savaşları: Hicrətin səkkizinci ili, Şəvval ayında baş vermişdir.
10. Təbuk döyüşü: Hicrətin doqquzuncu ili, Rəcəb ayında baş vermişdir.

Əlli altı döyüşdə isə şəxsən özü iştirak etməmişdir. Bu savaşlarda yeganə məqsədi zəiflərə, məzlumlara yardım etmək, onları bəşərə qul olmaqdan azad edib Xaliqə qul olmağa yönəltmək və insanların həqiqi azadlığını təmin etmək idi ki, kimsə kiməsə zülm, təcavüz və zorbalıq etməsin. Onun ﷺ gətirdiyi şəriət hər cür zülm və düşmənçiliyi, günahsız insanlara qarşı yönəlmiş hər növ təhdidi cinayət sayan və insanları əsl qardaşlığa səsləyən, onların arasında irqlərinə, rənglərinə, dillərinə və təbəqələrinə görə heç bir ayırım etməyən şəriətdir. O ﷺ, insanları İslam bayrağı altında birləşdirən qardaşlığa çağırmışdır. Bu qardaşlıq onları Allah önündə eyni hüquqlu bəndələr halına gətirmişdir. O ﷺ, həyatının son illərində vida həccində üzünü yüzminlərə tutaraq belə demişdir: *“Ey insanlar, sizin hamınızın Rəbbi tək olan Allahdır. Hamınız da eyni atadan törəmisiniz. Allaha qarşı təqvalı olmaq istisna, bir ərəbin əcəmdən, əcəmin də ərəbdən, ağın qaradan, qaranın da ağdan heç bir üstünlüyü yoxdur”.*[1] Elə onun şəriətinin bir nəticəsi idi ki, Bilal Həbəşi ﵁ İslamın əvvəllərində kölə bir qul olmasına rağmən, sonralar İslam tarixində iz buraxan şəxsiyyətlərdən birinə çevrildi. Peyğəmbərin ﷺ hərb siyasətinin hər mərhələsində ortaya çıxdı ki, İslam dini

[1] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.

hərb silahı ilə deyil, ağıl və məntiq silahı ilə yayılacaqdır. Çünki bu din aləmlərin Rəbbi olan Allahın bütün insanlar üçün göndərdiyi yeganə dindir.

### ❖ Padşahlara yazdığı məktubları

Peyğəmbər ﷺ kafir və müşrik olan padşahlara məktublar yazar, onları İslam dininə dəvət edərdi. Ənəs ibn Malik ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ Kisraya, Qeysərə, Nəcaşiyə və digərlərinə məktublar yazar, onları Allahın dininə dəvət edərdi.[1] Yazdığı məktublardan biri budur: *"Mərhəmətli və Rəhmli olan Allahın adı ilə! Allahın rəsulu Muhəmməddən Rumun imperatoru Herakla! Salam olsun doğru yolda olanlara! Mən səni İslama dəvət edirəm. İslamı qəbul et ki, qurtulmuş olasan. Allah da sənin əcrini iki qat versin. Əgər bu dəvətimi qəbul etməzsənsə, ətrafındakı xristianların da günahı sənin boynunadır. «Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq» (Ali-İmran, 64)".*[2]

### ❖ Vəfatı

Peyğəmbər ﷺ hicrətin on birinci ilində, Rəbiül-əvvəl ayının on ikisi, həftənin birinci günü altmış üç yaşında vəfat etmişdi. Vəfat etdiyi gün Əbu Bəkr ؓ onun yanına daxil olmuş, alnından öpərək belə demişdir: "Ey Peyğəmbər, həyatın da, vəfatın da nə gözəldir!" Peyğəmbərin ﷺ mübarək cəsədi yuyulduqdan və kəfənləndikdən sonra qəbrin kənarına qoyuldu, insanlar hissə-hissə gəlib fərdi şəkildə cənazə namazını qıldı. Daha sonra əmisi Abbas, Əli ibn Əbu Talib və Şuqran ؓ mübarək cəsədini qəbrə endirərək ləhdə qoydular, üzərinə doqquz ədəd kərpic düzərək üstünü torpaqladılar və qəbrini yerdən bir qarış hündür etdilər. Ənəs ibn Malik ؓ demişdir: "Peyğəmbər ﷺ Mədinəyə gəldiyi gün şəhərdə hər şey

---

[1] Müslim.
[2] Müslim.

nura qərq olmuşdu, vəfat etdiyi gün isə hər şeyi zülmət bürümüşdü. Əlimizi onun qəbrinin torpağından yeni götürmüşdük ki, (Peyğəmbərin ﷺ vəfatı səbəbilə) artıq qəlbimizdə dəyişiklik hiss etməyə başladıq".[1] Peyğəmbərə ﷺ xas olan xüsusiyyətlərdən biri də onun elə vəfat etdiyi yerdə basdırılması və cəsədinin çürüməməsidir. Peyğəmbər ﷺ bu xüsusda belə demişdir: *"Uca Allah peyğəmbərlərin cəsədini yeməyi torpağa haram etmişdir".*[2]

❁ ❁ ❁

[1] Tirmizi rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.
[2] Əbu Davud rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.

# ☙ İkinci hissə ❧

### ❖ Zövcələri

Peyğəmbərin ﷺ həyatına nəzər yetirən biri görər ki, o ﷺ əlli yaşına qədər yalnız bir qadınla – hər bir çətinliyində onunla bərabər olan Xədicə anamızla evli olmuşdur. Onunla ailə həyatı quranda Xədicə anamız artıq iki dəfə ailəli olub boşanmışdır və keçmiş yoldaşlarından övladları da var idi. Peyğəmbərin ﷺ ən qatı düşmənləri belə nə onun peyğəmbərliyindən öncə, nə də ki sonra həyatının bu dönəmində ona ləkə gətirəcək bir məqam axtarıb tapa bilmədilər. O dönəmin ərəb cəmiyyətində qohumluq əlaqələrinin təsir gücü böyük idi. Peyğəmbər ﷺ də dörd xəlifə – Əbu Bəkr, Ömər, Osman və Əli ilə olan dostluğunu, yaxınlığını qohumluq əlaqəsi ilə möhkəmləndirmişdir. Bir çox yoldaşları ilə evliliyi də məhz həyatının sonlarına təsadüf edir. Şübhəsiz ki, bu da ilahi bir hikmətdən doğan amildir ki, bunun vasitəsilə İslama düşmən kəsilən qəbilələrin hiddətini azaltmış, qan tökülməsinin qarşısını almış və əmin-amanlıq içərisində olan bir müsəlman cəmiyyəti qura bilmişdir. Peyğəmbərin ﷺ zövcələri möminlərin anaları hesab olunur. Peyğəmbər ﷺ vəfat etdikdə doqquz zövcəsi var idi:

1. Əbu Bəkr əs-Siddiqin qızı Aişə;
2. Ömər ibn əl-Xattabın qızı Həfsə;
3. Qureyşin ağası Əbu Süfyanın qızı Ummu Həbibə (Ramlə);
4. Əbu Umeyyə əl-Məxzumiyyənin qızı Ummu Sələmə (Hind);
5. Haris əl-Hiləliyyənin qızı Məymunə;
6. Haris əl-Xuzaiyyənin qızı Cuveyriyə;
7. Yəhudi qəbiləsinin rəisi Huyeyin qızı Səfiyyə;
8. Qureyşdən olan Zəmanın qızı Sevda;
9. Cəhşin qızı Zeynəb. Uca Allah Öz peyğəmbərini bu qadınla evləndirmiş və beləcə övladlığa götürülən kəsin həqiqi övlad sayılmadığını bəyan etmişdir.[1]

---

[1] Çünki Zeynəb binti Cəhş Peyğəmbərin ﷺ oğulluğa götürdüyü Zeyd ibn Sabitin boşadığı xanımı və bibisinin qızıdır. 35 yaşında Muhəmməd peyğəmbərə ﷺ ərə getmişdir.

### ❖ Övladları

Peyğəmbərimizin ﷺ üç oğlu və dörd qızı olmuşdur. Oğlanları Qasim, Abdullah və İbrahimdir. Hər üçü də iki yaşını keçməmiş körpə ikən vəfat etmişdir. Qızları isə Zeynəb, Ruqeyyə, Ummu Gülsüm və Fatimədir. Hər dördü də atalarının peyğəmbərlik dönəminə yetişmiş, İslamı qəbul etmiş və Mədinəyə hicrət etmişdir. İbrahimdən başqa bütün övladları Xədicədəndir. İbrahim isə Mariyədəndir. Fatimədən başqa bütün övladları onun sağlığında vəfat etmişdir. Fatimə isə atasının vəfatından sonra cəmi altı ay yaşamışdır.

### ❖ Əmiləri və bibiləri

Peyğəmbərimizin ﷺ on bir əmisi və altı bibisi var idi. Əmilərindən yalnız dördü İslam dönəminə yetişmişdir. İkisinin – Həmzə və Abbasın (Allah onların hər ikisindən də razı olsun!) İslamın zəfər qazanması üçün zəhmətləri olmuşdur. İkisi – Əbu Talib və Əbu Ləhəb isə İslamı qəbul etməmişdir. Onların hər ikisi barədə Quranda Qiyamət gününəcən oxunacaq ayələr nazil olmuşdur. Bibiləri isə Zubeyr ibn Əvvamın anası Safiyyə, Atikə, Bərra, Ərva, Umeymə və Ummu Həkimdir.

### ❖ Şairləri

Öz şeirləri ilə İslam dinini müdafiə edən şairləri bunlar idi:

- Kəb ibn Malik ﵁;
- Abdullah ibn Ravaha ﵁;
- Həssən ibn Sabit ﵁.

### ❖ Müəzzinləri

Peyğəmbərin ﷺ dörd müəzzini olmuşdur: Bilal ibn Rəbah, Mədinə şəhərində Abdullah ibn Ummu Məktum, Məkkədə Əbu Məhzura, Qubada Səd əl-Qaraz ﵁.

### ❖ Xidmətçiləri

Səhabələr Peyğəmbərə ﷺ xidmət etməyi sevər və onun ehtiyaclarını ödəməyə can atardılar. Ona ən çox xidmət edənlər içərisində Ənəs ibn Malik, Rabiə ibn Kəb, Əbu Zər əl-Ğifari və

Abdullah ibn Məsud ﵁ yer almaqdadır. Buna rəğmən o ﷺ öz xidmətçiləri ilə ən gözəl və ən yumşaq şəkildə davranar, heç vaxt onları təqsirlərinə, xətalarına görə acılamaz və onlarla kobud rəftar etməzdi.

### ❖ Valiləri və əmirləri

Peyğəmbər ﷺ məktublar vasitəsilə davamiyyətli şəkildə valilərinə əmr və qadağalarını çatdırardı. Valiləri onun ﷺ hər bir əmrini yerinə yetirərdi. Attəb ibn Useydi ﵁ Məkkəyə, Osman ibn Əbul-Ası ﵁ Taifə, əl-Aləə ibn Hadramini ﵁ Bəhreynə, Amr ibn Ası ﵁ Omana, Əbu Süfyan ibn Hərbi ﵁ Nəcrana, Bəzəni ﵁ Sənaya və Yəmən dağlarına, Əbu Musa əl-Əşarini ﵁ dənizkənarı ərazilərə, Amr ibn Səidi ﵁ Vadil-Quraya, Yezid ibn Əbu Süfyanı ﵁ Teymaya, Suməmə ibn Usalı ﵁ Yəməməyə, Muaz ibn Cəbəli ﵁ isə Cundə vali təyin etmişdir. Qoşunlara təyin etdiyi əmirlərin səlahiyyəti həmin hərbin bitməsilə tamamlanar, kənd və şəhərlərə təyin etdiyi əmirlərin səlahiyyətləri isə davam edərdi.

❁ ❁ ❁

# ☙ Üçüncü hissə ❧

### ❖ Fəziləti və bərəkəti

Vasilə ibn Əsqa ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql edir: *“Uca Allah Kinanəni İsmayılın övladları içərisindən, Qureyşi isə Kinanədən seçdi. Qureyşdən Bəni Haşimi, Bəni Haşimin içindən isə məni seçdi”.*[1] Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *“Altı xüsusda bütün peyğəmbərlərdən üstün edildim. Belə ki, mənə “cəvamiul-kəlim” – az kəlmə ilə çox məna ifadə etmək bacarığı verildi. Uzaq məsafədən düşmənin canına qorxu salmaqla mənə yardım edildi. Mənim üçün qənimət halal edildi. Bütün yer üzü mənim üçün namazgah və təmizləyici edildi. Mən bütün insanlara peyğəmbər olaraq göndərildim və peyğəmbərlik mənimlə tamamlandı”.*[2] Bərəkətinə nümunə olaraq Cabirin ؓ bu rəvayətini qeyd etmək olar: Hudeybiyyə günü insanlar çox susadı, Peyğəmbərin ﷺ önündə dəstəmaz aldığı bir su qabı var idi. Bu an Peyğəmbər ﷺ insanların az qala ağlayaraq ona doğru gəldiklərini gördü və onlara: *“Sizə nə olub?”* – dedi. Cavabında belə dedilər: “Sənin önündə olan sudan başqa nə dəstəmaz almaq, nə də içmək üçün başqa suyumuz qalmayıb”. Peyğəmbər ﷺ əlini önündəki qaba saldı və Allaha dua etdi. Sonra belə dedi: *“Haydı dəstəmaz suyuna! Bərəkət Allahdandır!”* Cabir ؓ deyir ki, mən suyun onun ﷺ əlinin altından necə axdığını görürdüm. İnsanlar o su ilə dəstəmaz aldılar və doyunca içdilər. Mən də həmin sudan bol-bol içdim, bildim ki, o su Allahdan bir bərəkətdir. Cabirdən ؓ soruşdular ki, həmin günü siz neçə nəfər idiz? Cabir belə cavab verdi: “Min dörd yüz nəfər”.[3] Peyğəmbərin ﷺ bərəkətinə dəlalət edən və insanların gözü önündə baş vermiş bu cür hadisələr çox olmuşdur. Bunlar Buxari və Müslimin “Səhih” əsərlərində və digər kitablarda zikr edilmişdir. Səhabələr Peyğəmbərin ﷺ mübarək bədəni və onun ağız suyu, təri və saçı kimi bədənindən ayrılan şeylərlə təbərrük edərdilər, yəni Allahdan bərəkət umardılar. Onu

---

[1] Müslim.
[2] Buxari və Müslim.
[3] Buxari.

da qeyd edək ki, Peyğəmbərin ﷺ bədənindən ayrılmış şeylərlə təbərrük etməyin hökmü onun ölümü və həmin əşyaların aradan getməsi ilə ləğv edilmişdir. Uca Allah peyğəmbəri Muhəmmədi ﷺ digər peyğəmbərlərdən və elçilərdən üstün etmişdir. Çünki o ﷺ bütün peyğəmbərlərin sonuncusu və bütün məxluqatın ən əfzəlidir. Qiyamət günü "Məqamul-məhmud"un sahibi odur. Həmçinin o ﷺ bütün insanlara və cinlərə peyğəmbər olaraq göndərilmişdir. İnsanların və cinlərin ecazı qarşısında boyun əydikləri Qurani-Kərim ona ﷺ nazil olmuşdur. O ﷺ, gecə vaxtı Məkkədən Beytül-Məqdisə aparılmış, oradan da ən uca səmaya, hətta Sidrətül-müntəhaya qədər yüksəldilmiş və mələklərin qələmlərinin səsini eşitmişdir. Həmçinin Uca Allah Peyğəmbəri ﷺ öz ümmətindən bəzi xüsuslarda fərqləndirmiş, ona heç kəsə vacib etmədiyi bəzi şeyləri vacib etmiş və heç kəsə qadağan etmədiyi bəzi şeyləri də məhz ona qadağan etmişdir. Habelə heç kəsə icazə vermədiyi bəzi xüsusları ona halal etmişdir. Misal olaraq, ona və əhli-beytinə sədəqənin haram olmasını, gecə namazının ona vacib olmasını, ona dörddən çox qadınla evlənməyin icazəli olmasını və onun özündən sonra mal-mülk olaraq miras buraxmamasını qeyd etmək olar.

### ❖ Gözəlliyi

Ən son vəfat edən səhabə Əbu Tufeyl ؓ belə demişdir: "Mən Peyğəmbəri ﷺ gördüm. İndi yer üzündə məndən başqa onu görən heç bir kimsə yoxdur. O ﷺ, ağ dərili, gözəl üzlü idi".[1] Bəra ibn Malik ؓ demişdir: "Peyğəmbər ﷺ insanların ən yaraşıqlısı və ən əxlaqlısı idi".[2] Kəb ibn Malik ؓ belə demişdir: "Peyğəmbər ﷺ sevindiyi zaman üzü ay parçası kimi parıldayardı".[3] Peyğəmbər ﷺ ortaboylu idi, nə çox uzun, nə də çox qısa idi. Nə qarabuğdayı, nə də tam ağdərili idi. Dərisinin ağlığında qırmızıya çalan əsmərlik var idi. Gözəl qamətli, enlikürəkli və yumrusifət idi. Göz bəbəkləri qapqara, kirpikləri isə uzun idi. Üzü bədirlənmiş ay kimi parlaq

---

[1] Müslim.
[2] Buxari.
[3] Buxari və Müslim.

idi. Gözəl səsli, sıx saqqallı idi. Çiyinləri, dirsəkdən aşağı qolları və sinəsinin yuxarıları tüklü idi. Camaat içinə çıxdıqda bəzənərdi, ən gözəl paltarlarını geyinərdi və belə deyərdi: *“Allah gözəldir, gözəlliyi və öz nemətlərinin əsər-əlamətini bəndələrinin üzərində görməyi sevər”.*[1]

### ❖ Peyğəmbərlik möhürü

Məryəm oğlu İsa عليه السلام özündən sonra peyğəmbərimiz Muhəmmədin ﷺ gələcəyini müjdələmişdir. Bu barədə Uca Allah Quranda belə buyurur: *“Bir zaman Məryəm oğlu İsa demişdi: Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı elçisi ilə sizi müjdələyən bir peyğəmbərəm!”*[2] Kitab əhlinin – yəhudi və nəsranilərin kitablarında Peyğəmbərimizin ﷺ gələcəyi zamana və vəsflərinə dair məlumatlar və əlamətlər var idi. Onlar bu vəsflər ilə Peyğəmbərimizi ﷺ tanıyırdılar. Xaçpərəst və yəhudi din adamlarından nəql olunmuş çoxsaylı rəvayətlərə əsasən, bu aləmətlərdən biri də “peyğəmbərlik möhürü” idi. Necə ki bu, Salman əl-Farisinin رضي الله عنه İslamı qəbul etməsi ilə nəticələnən məşhur qissəsində, habelə Abdullah ibn Sərcisin رضي الله عنه və digərlərinin rəvayətlərində öz əksini tapmışdır. Səib ibn Yezid رضي الله عنه belə demişdir: “Mən peyğəmbərlik möhürünü onun iki çiyni arasında gördüm. Göyərçin yumurtası kimi idi”.[3] Yəni peyğəmbərlik möhürü onun şərəfli kürəyində və göyərçin yumurtası boyda bir ət parçası – xal idi.

### ❖ Ətri və qoxusu

Cabir ibn Samura رضي الله عنه demişdir: *“Peyğəmbər ﷺ əli ilə yanağıma toxundu, əlində elə bir soyuqluq və gözəl qoxu hiss etdim ki, sanki əlini ətir qabından çıxartmışdı”.*[4] Aişə anamız demişdir: “Mən

---

[1] Beyhəqi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Əs-Saff, 6.
[3] Buxari və Müslim.
[4] Müslim.

Peyğəmbəri ﷺ əlimdə olan ən gözəl ətirlə ətirləyərdim”.[1] Digər rəvayətdə belə deyilir: “Peyğəmbər ﷺ ətir sevər və çox ətirlənərdi. Onun gəlişi gözəl qoxusu ilə bilinərdi. Ən çox sevdiyi ətir müşk idi. Ona hədiyyə olaraq verilən heç bir ətri geri qaytarmazdı”.[2] Ənəs ibn Malik ﷺ demişdir: “Peyğəmbərin ﷺ qoxusundan daha gözəl qoxan nə bir müşk, nə də bir ənbər qoxuladım”.[3]

### ❖ Təmizliyi və təmizlənməsi

Peyğəmbər ﷺ daima zahiri və batini təmizliyinə diqqət yetirərdi. Qəlbini həsəddən, kin və küdurətdən təmizləyər, Allahın zikri və Ona itaət ilə süsləyərdi. Bədənini daima təmiz tutar, paltarına, ayaq geyiminə bulaşan çirki təmizləyərdi. Həmçinin ümmətinə də təmizkar olmağı əmr edər və bir çox şeydə təmizliyə riayət etməyə təşviq edərdi. Belə ki, cənabət qüslunu əmr edər, Cümə günü çimməyə təşviq edərdi. Bığları gödəltməyi, dırnaqları, qoltuqaltı və qasıq tüklərini qırxmağı əmr edərdi. Əyin-başın, həyət-bacanın təmiz tutulmasına, hətta yolda əziyyət verən şeylərin aradan qaldırılmasına təşviq edər, kölgəliklərin, yolların, suların və camaatın istifadə etdiyi yerlərin bulaşdırılmasını qadağan edərdi. Bəndəni Rəbbinə yaxınlaşdıran hər namaz öncəsi misvak işlədilməsini və ağız təmizliyinə önəm verilməsini tələb edərdi.

### ❖ Sürməsi

Peyğəmbər ﷺ hər gecə yatmamışdan öncə gözlərinə üç dəfə sürmə çəkərdi. Çünki sürmə göz sağlığı üçün çox faydalıdır. Gözün nurunu artırır və gözdəki zərərli maddələri xaric edir. O belə deyərdi: *“İsmid sürməsindən (sürmə tozundan) istifadə edin! Çünki o, kirpikləri uzadır, gözə qaçan tozları təmizləyir və gözün nurunu artırır”.*[4]

---

[1] Buxari.
[2] Dərimi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Müslim.
[4] Təbərani rəvayət etmiş, Munziri və İbn Həcər səhih olduğunu qeyd etmişlər.

### ❖ Misvakı[1]

Peyğəmbər ﷺ Ərak ağacından düzəldilmiş misvakı çox sevər və belə deyərdi: *"Əgər ümmətim üçün çətin olmasaydı, onlara misvakdan istifadə etməyi əmr edərdim"*. [2] O ﷺ, yuxudan oyandıqda, dəstəmaz aldıqda, namazdan öncə və evinə daxil olarkən, adi günlərdə və oruclu olduğu vaxtlarda da misvakdan istifadə edərdi. Hətta misvak iki dodağı arasında olduğu halda vəfat etmişdir.

### ❖ Üzüyü

Ənəs ibn Malik ﵁ Peyğəmbərin ﷺ üzüyü barədə belə demişdir: "Peyğəmbərin ﷺ üzüyü gümüşdən idi və üzərində «*Muhəmmədun rəsulullah*» yazısı nəqş edilmişdir".[3]

### ❖ Silahları

Peyğəmbərin ﷺ üç nizəsi, üç yayı, altı qılıncı, iki qalxanı, bir zirehi, dördbucaq şəklində qara rəngli hərb bayrağı və ağ rəngli sülh bayrağı var idi.

### ❖ Minikləri

Peyğəmbərin ﷺ bir neçə atı var idi. İlk sahib olduğu atının adı əs-Səkb idi. Düldül adlı bir qatırı var idi, səfərə çıxdıqda, adətən, onunla çıxardı. Peyğəmbərin ﷺ vəfatından sonra da uzun illər yaşadı. Hətta Əli ibn Əbu Talib ﵁ xəvariclərlə savaşarkən həmin qatırın üzərində döyüşürdü. Həmçinin Qasva adlı bir dəvəsi, Ufeyr adlı bir uzunqulağı var idi. Həmin uzunqulaq vida həccində ölmüşdü.

### ❖ Geyimi

Peyğəmbər ﷺ nəyə imkanı çatardısa, o paltardan geyinərdi. Bəzən pambıqdan, bəzən yundan, bəzən isə kətandan olan və sahib

---

[1] Misvak dişlərin təmizlənməsi üçün istifadə edilən, Ərak ağacından və buna bənzər ağaclardan düzəldilmiş təbii diş fırçasıdır.
[2] Buxari və Müslim.
[3] Buxari və Müslim.

olduğu ən gözəl paltarlarını geyinərdi. Onun yanına gələn qəbilə başçılarını, nümayəndə heyətlərini qarşılamaq üçün özünə layiq və onlara münasib bir şəkildə geyinib-keçinərdi. Geyinməsini ən çox sevdiyi libası ağ paltarlar idi və əshabına da ağ geyinməyi tövsiyə edərdi. Ən çox sevdiyi geyim qamis – köynək idi və köynəyinin qolları biləklərinə qədər uzanardı. Paltarını topuqdan yuxarı geyinər, *"Topuqdan aşağı geyinməkdə xeyir yoxdur"*[1] , – deyər və bunu ümmətinə qadağan edərdi. Peyğəmbər ﷺ, əsasən, izar – qurşaqdan aşağı ayaq geyimi, rida – qurşaqdan yuxarı bədən geyimi, şalvar, əmmamə, xuff – dəridən olan ayaq geyimi və səndəl geyinərdi.

## ❖ İçkisi

Aişə anamız belə demişdir: "Peyğəmbərin ﷺ ən çox sevdiyi içki sərin şirin su (quyu, bulaq suyu və s.) idi".[2] Ənəs ibn Malik ﵁ demişdir: *"Peyğəmbər ﷺ suyu üç nəfəsə (üç qurtuma) içərdi və belə deyərdi: Bu həm susuzluğu yatırır, həm də daha faydalıdır"*.[3] Su içərkən daima oturaq halda içər, içməmişdən əvvəl *"bismilləh"*, sonda isə *"əlhəmdulilləh"* deyərdi.

## ❖ Qidası

Peyğəmbər ﷺ hazır olan yeməyi geri qaytarmaz, olmayanı isə tələb etməzdi. Yeyə bilmədiyi qida növləri istisna olmaqla, ona təqdim olunan hər pak qidanı qəbul edərdi. Nəfsi çəkməyən qida növlərini tərk edər, ümmətinə isə qadağan etməzdi. Xoşladığını yeyər, nəfsi çəkməyəni isə tərk edərdi, lakin heç vaxt heç bir yeməyi pisləməzdi. Balı, halvanı, dəvə, qoyun, toyuq, dovdaq və dovşan ətini, habelə dəniz məhsullarını, közdə bişmiş yeməkləri, quru və yaş xurma növlərini sevərdi. Əksər vaxtlarda süfrəsi yerdə açılardı. Üç barmaq ilə yeyər və yedikdən sonra barmaqlarını yalayardı. Heç vaxt dirsəklənmiş halda yemək yeməzdi. Yeməyin əvvəlində *"bismilləh"*, qurtardıqdan sonra isə *"əlhəmdulilləh"*

---

[1] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.
[2] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Buxari və Müslim.

deyərdi. Oruclu olduğu günlərdə orucunu namaz qılmamışdan qabaq xurma ilə, xurma olmadıqda isə bir neçə qurtum su ilə açardı.

### ❖ Danışıq tərzi

Peyğəmbərin ﷺ susması danışmasından daha çox olardı. Ehtiyac olmadıqca, yaxud ona aidiyyatı olmayan məsələlər barədə danışmazdı. Danışdıqda yalnız əcr və savab əldə edəcəyi mövzular barədə danışardı. O ﷺ, başa düşülən formada danışardı, nə tələm-tələsik, nə də hıqqana-hıqqana danışardı. Aişə anamız belə demişdir: “Peyğəmbərin ﷺ danışıq tərzi açıq-aydın idi. Dinləyən hər kəs onu rahat şəkildə anlayırdı” [1] ; “O, yanında oturanın əzbərləyə biləcəyi şəkildə açıq və dənə-dənə danışardı”[2] ; “Bəzən yaxşı anlaşılsın deyə, sözü üç dəfə təkrar edərdi”.[3]

### ❖ Bəlağəti və fəsahəti

Peyğəmbərimiz Muhəmməd ﷺ yazıb-oxumağı bacarmadığı halda, insanların ən bəlağətlisi və ən gözəl danışanı idi. Mənası geniş, ləfzi isə müxtəsər olan kəlmələr ilə danışardı. İnsanlara xitab edəndə ən gözəl, ən lətif ibarələri seçər və yerinə, məqamına uyğun bir şəkildə danışardı. Xütbələri dinləyənləri cəlb edər, görünüşü isə ona baxanların ağlını başından alardı və beləcə danışdığı hər kəlməsi insanların ruhunda iz buraxardı. Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *“Mən cəvamiul-kəlim ilə göndərildim”.* [4] Cəvamiul-kəlim dedikdə az kəlmə ilə geniş məna ifadə etmək nəzərdə tutulur ki, Uca Allah ona bu istedadı bəxş etmişdir. Peyğəmbərin ﷺ kəlamı nur və hikmət dolu idi. Hər hansı bir məclisdə oturduğu zaman dostlarının gözü və diqqəti daima onun üzərində olardı. Bir gün əshabının dövrəsində oturdu və belə dedi: *“Kim bu sözləri məndən götürüb əməl edə bilər?”* Əbu Hureyrə ؓ dedi: “Mən, ey Peyğəmbər”. O

---

[1] Əbu Davud rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.
[2] Buxari və Müslim.
[3] Buxari.
[4] Buxari və Müslim.

ﷺ da mənim əlimdən tutdu, beş şey saydı və dedi: *“Haramlardan uzaq dur ki, insanların ən abidi olasan. Allahın (ruzi) bölgüsü ilə razılaş ki, insanların ən zəngini olasan. Qonşuna yaxşılıq et ki, mömin olasan. Özün üçün istədiyini başqaları üçün də arzu et ki, müsəlman olasan. Çox gülmə, çünki çox gülmək qəlbi öldürər”.*[1] Bir gün insanların önündə durdu və belə dedi: *“Ey insanlar, öz aranızda salamı yayın, acları doyurun, qohumluq əlaqələrini möhkəm tutun, insanlar yatdıqları halda, sizlər gecə namazına durun və nəticədə tam əmin halda Cənnətə daxil olun”.*[2]

### ❖ Gülüşü və təbəssümü

Peyğəmbər ﷺ gülərüz idi. Özünü heç vaxt gülməyə məcbur etməzdi. Əksinə, gülmək üçün səbəb olduqda özü də hiss etmədən təbəssüm edərdi. Aişə anamız demişdir: “Peyğəmbərin ﷺ ağzının içi görününcəyə qədər (qəhqəhə ilə) güldüyünü görmədim. O ﷺ yalnız təbəssüm edərdi”.[3] Abdullah ibn əl-Haris ؓ demişdir: “Peyğəmbərdən ﷺ daha çox təbəssüm edən birini görmədim”.[4] Cərir ibn Abdullah ؓ demişdir: “Müsəlman olduğum vaxtdan bəri hər dəfəsində Peyğəmbər ﷺ məni gördükdə və ayrıldıqda mütləq gülümsəyərdi”.[5] Həm böyüklərlə, həm də kiçiklərlə bu cür rəftar edərdi. Ənəs ibn Malik ؓ demişdir: “Peyğəmbər ﷺ insanların ən gözəl əxlaqlısı idi. Bir gün məni bir ehtiyacdan dolayı bir yerə göndərdi. “Vallahi getmərəm”, – dedim. Lakin içimdə Peyğəmbərin ﷺ əmr etdiyi yerə getməyi niyyət etmişdim. Çölə çıxdım və bazarda oynayan uşaqlara qoşuldum. (Əmr etdiyi yerə getməyi unutdum) Bir də gördüm ki, arxadan başımı kimsə tutdu. Baxdım ki, Peyğəmbər ﷺ gülür və mənə: *“Ey Ənəscik! Söylədiyim yerə getdinmi?”* – dedi. Mən də: “Bu dəqiqə gedirəm, ey Allahın

[1] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Buxari.
[4] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[5] Buxari və Müslim.

elçisi!” – deyə cavab verdim. Ənəs ibn Malik ؓ deyir ki, on il[1] Peyğəmbərə ﷺ xidmət etdim və bu illər ərzində bir dəfə də olsun məni etdiyim bir iş barədə *“bunu nə üçün etdin?”* və etmədiyim bir iş barədə *“bunu nə üçün etmədin?”* deyib azarlamadı.[2] Onun ﷺ həyatında nadir görülmüş hadisələrdən biri imam Buxarinin rəvayət etdiyi bu hadisədir: Peyğəmbər ﷺ bir gün əshabına Cənnətə ən son girəcək insanın qissəsini nəql edirdi. Uca Allah həmin insana: “Get, Cənnətə daxil ol! Sənin üçün orada on dünya qədər yer vardır”, – dedikdə həmin insanın ağlı bunu dərk edə bilməyəcək və “Sən aləmlərin Rəbbi olduğun halda, mənimlə istehza edirsən?” – deyəcəkdir. Qissəni nəql edərkən Peyğəmbər ﷺ həmin insanın bu sözünə görə azı dişləri görünəcək şəkildə gülməyə başladı. Aişə anamız belə nəql edir: “Bir gün Peyğəmbərə ﷺ onun üçün hazırladığım xazira adlı yemək gətirdim.[3] Həmin vaxt Sevda Peyğəmbər ﷺ ilə mənim aramda idi. Ona dedim ki, ye! O isə yeməkdən boyun qaçırdı. Mən də “ya yeyəcəksən, ya da yeməyi üzünə sürtəcəm”, – dedim. O, yenə də yeməkdən imtina etdi. Mən də əlimi yeməyin içinə saldım, sonra da üzünü buladım. Bunu görən Peyğəmbər ﷺ gülməyə başladı və Sevdaya: *“Sən də onun üzünə sürt!”* – dedi. O da yeməyi üzümə sürtdü. Peyğəmbər ﷺ isə gülürdü. Elə bu ərəfədə Ömər ؓ evin yanından keçirdi və “ey Abdullah! Ey Abdullah” deyə səsləndi. Allah rəsulu ﷺ Ömərin evə daxil olacağını zənn edib: *“Durun ikinizdə üzünüzü yuyun!”*, – dedi. Aişə anamız deyir ki, Peyğəmbərin ﷺ Ömərə ؓ qarşı olan hədsiz hörmətinə görə hələ də ondan çəkinirəm.[4] Bax bu cür sadə və lətif formada Peyğəmbərimiz ﷺ öz ailəsi ilə zarafatlaşar, onları güldürər və könüllərini şad edərdi.

---

[1] Ənəs ibn Malik ؓ Peyğəmbər ﷺ Mədinəyə hicrət edən gündən vəfat etdiyi günə qədər on il ərzində, yəni on yaşından iyirmi yaşınacan onun xidmətçisi olmuşdur.

[2] Buxari və Müslim.

[3] Xırda-xırda doğranmış ətdən, yağ və undan ibarət yemək növüdür.

[4] Əbu Yalə rəvayət etmiş, Əlbani isə həsən olduğunu qeyd etmişdir.

### ❖ Yürüş tərzi

Peyğəmbər ﷺ ən iti, ən gözəl və ən rahat şəkildə yürüyən biri idi. Yürüdükdə ətrafa boylanmazdı. Şux gəzərdi. Tənbəl və bitkin gəziş tərzindən uzaq idi. Həm ayaqyalın, həm də ayaqqabı ilə gəzərdi. Təktay ayaq geyimi ilə gəzməyi isə qadağan etmişdir.[1]

### ❖ Yatışı və duruşu

Peyğəmbər ﷺ nə ehtiyacdan artıq, nə də ehtiyacdan az yatardı. Ehtiyacı miqdarında və sağ tərəfi üzərində yatardı. Allahı zikr edə-edə gözlərini yumardı. İmam Buxari rəvayət etmişdir ki, Peyğəmbər ﷺ yatağına çəkildikdə əlini yanağının altına qoyar, sonra isə belə deyərdi: *"Allahım, sənin adınla ölür və dirilirəm"*. Oyandıqda isə belə deyərdi: *"Öldürdükdən sonra bizi yenidən dirildən Allaha həmd olsun! Dönüş yerimiz yalnız onadır!"* Gecənin ilk əvvəlində yatar, gecə yarısı oyanardı. Oyandıqda dişlərini misvakla təmizləyər, dəstəmaz alar və namaz qılardı. Rəbbinin önündə duraraq Ona yalvarar, həmd-səna ilə Onu öyərdi. Bədəninə, əzalarına əcr və savab, həmçinin qəlb rahatlığı ilə birlikdə yuxu və istirahətdən, habelə idmandan da öz nəsibini verərdi. Bu, əsl qəlb və bədən sağlamlığı, dünya və Axirət səadətidir. Buxari və Müslim "əs-Səhih" əsərlərində rəvayət edirlər ki, Peyğəmbər ﷺ gecənin son üçdə birində oyandı və başını səmaya qaldıraraq Ali-İmran surəsinin son on ayəsini oxudu, sonra qalxdı, dəstəmaz alıb nafilə ibadətlər etdi – on bir rükət namaz qıldı". Peyğəmbər ﷺ günorta yarısı (zöhrdən əvvəl, yaxud sonra) bir az yatardı. Bu yatışı onun yorğunluğunu aradan qaldırar, bədəninin gücünü, cismi və zehni enerjisini özünə qaytarardı. O bu qayda üzrə, adətən, Zöhr vaxtı havanın istiliyi şiddətləndikdə yatardı. Həm evində, həm səfərdə olduqda, habelə bəzən döyüşlərdən qayıtdıqdan sonra da bu adətinə riayət edərdi. İmam Buxari Ummu Haramın belə dediyini rəvayət etmişdir: "Peyğəmbər ﷺ bizim yanımızda (günorta vaxtı) karvanda yatmışdı. O gülərək yuxudan ayıldı. Mən: "Ey Peyğəmbər, səni güldürən səbəb nədir?" – deyə soruşduqda mənə belə cavab verdi: *"Mən*

---

[1] Əlbani "Silsilətul-əhadis əs-səhihə" əsərində zikr etmişdir.

*ümmətimdən bir dəstənin (gəmi ilə) dəniz üzərində padşahlar kimi yürüdüyünü gördüm”.* Dedim ki, ey Peyğəmbər, dua et ki, mən də onlardan olum. Dedi ki, sən onlardansan. Sonra yenidən yatdı və bu dəfə də gülərək yuxudan ayıldı. Mən: “Ey Peyğəmbər, səni güldürən səbəb nədir?” – deyə soruşduqda mənə eyni cavabı verdi. Dedim ki, ey Peyğəmbər, dua et ki, mən də onlardan olum. Dedi ki, sən onların birincilərindənsən”. Peyğəmbər ﷺ əshabını da günorta yatışına təşviq edərdi. O belə demişdir: “Siz günorta yatın, çünki şeytanlar günorta yatmazlar”.[1] Qaylulə – günorta yatışı təxmini olaraq bir saat çəkir.

### ❖ Alqı - satqısı

Peyğəmbər ﷺ sağlığında alış-veriş edər və ticarətlə məşğul olardı. Ümumiyyətlə, onun həyatında, xüsusən də peyğəmbərlik dönəmindən sonra nəyisə satın alması halları kiməsə nə isə satmasından daha çox olmuşdur. Həmçinin Mədinəyə hicrət etdikdən sonra da nadir hallarda kiməsə nə isə satmış, onu da, adətən, qeyrisinin mənfəəti üçün etmişdir. Peyğəmbərlik vəzifəsindən öncə isə qazanc müqabilində çobanlıq etmişdir. Həmçinin Xədicə anamız üçün onun ticarət malları ilə Şam diyarına səfər etmiş və qazancla geri dönmüşdür.

❁ ❁ ❁

[1] İbn Hibban rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.

# ❧ Dördüncü hissə ☙

### ❖ Həyası

Ədəb, nəzakət və həya onun ﷺ nəcib şəxsiyyətinin ayrılmaz vəsfi və ətrafında olan insanların sevgisini özünə cəlb edən əsas amillərdən idi. Buxari və Müslimin "Səhih" əsərlərində rəvayət olunmuşdur ki, əshabından bəziləri onun evində qonaq ikən çox oturmuş və başları söhbətə qarışmışdı. O isə həyasından dinməmiş, öz haqqını arxa plana çəkmiş və əshabının rahatlığı naminə bu narahatçılığa dözmüşdür. Nəticədə Uca Allah Öz peyğəmbərinə qarşı olan rəhmətindən, habelə onun haqlarını qorumaq naminə bu ayələri nazil etmişdir: *"Çünki bu hərəkətiniz Peyğəmbəri narahat edir və o sizdən utanır. Allah isə haqqı deməkdən utanmır".*[1] Ənəs ibn Malik belə demişdir: "Peyğəmbər ﷺ bir kimsənin üzünə qarşı onu üzəcək və xoşlamadığı bir şey söyləməzdi".[2] Onun Allah qarşı olan həyası isə daha əzəmətli və daha çox idi. Elə bu səbəbdən də Uca Allahın hökmlərinə qarşı son dərəcə ehtiyatla yanaşar və Allahın dinində heç kəsə güzəştə getməzdi.

### ❖ Mülayimliyi

Peyğəmbər ﷺ hər işində mülayim idi. Onunla yoldaşlıq edən hər kəs onun bu xasiyyətinə bələd idi. Öz növbəsində əshabına da mülayim olmağı tövsiyə etmiş və bu işdə onu nümunə götürsünlər deyə, gözəl bir şəkildə onlara belə demişdir: *"Satarkən, alarkən və haqqını tələb edərkən mülayim olan şəxsə Allah rəhm etsin!"*[3] Əbu Hureyrə ؓ rəvayət edir ki, bir nəfər alacağı bir dəvəsini istəmək üçün Peyğəmbərin ﷺ yanına gəldi və önündə durub onunla kobud danışmağa başladı. Səhabələr o adama mane olmaq istədikdə Peyğəmbər ﷺ: *"Bu adamdan əl çəkin. Hər haqq sahibinin söz söyləmək haqqı vardır"* deyə buyurdu. Sonra da: *"Ona elə özünün dəvəsi kimi bir dəvə alıb verin!"* deyə əmr etdi. Səhabələr onun dəvəsi kimi dəvə axtarsalar da, dəvəsindən daha yaxşı və daha

---

[1] Əl-Əhzab, 53.
[2] Əhməd rəvayət etmiş, Arnault isə həsən olduğunu vurğulamışdır.
[3] Buxari.

bahalı dəvə tapdılar. Peyğəmbər ﷺ belə dedi: *“Onu verin! Çünki sizin ən xeyirliniz borcunu ən gözəl şəkildə ödəyəninizdir”*. Həmin kişi də cavabında: “Sən haqqının artıqlaması ilə ödədin, Allah əvəzini versin!” deyə dua etdi.[1] Peyğəmbər ﷺ Cabirin ؓ səfərdə yorğun düşüb bitkin hala gəlmiş dəvəsini almaq istəmiş, o da dəvəsini iki yüz dirhəmə satmışdı. Daha sonra Cabir ؓ gəlib pulu istədikdə Peyğəmbər ﷺ ona pul ilə birgə dəvəsini də qaytarmışdı.[2] Bir gün bir bədəvi gəlib Peyğəmbərin ﷺ məscidinə daxil oldu, iki rükət namaz qıldı və sonra belə dua etdi: “Allahım, mənə və Muhəmmədə rəhm et, başqa heç kimə mərhəmət etmə!” Peyğəmbər ﷺ ona tərəf dönərək belə dedi: *“Sən geniş olan bir şeyi daraltdın”*. Sonra çox keçmədi ki, həmin bədəvi məscidə kiçik subaşına çıxdı. İnsanlar onun üzərinə yürümək istədikdə Peyğəmbər ﷺ onlara belə dedi: *“Sizin vəzifəniz asanlaşdırmaqdır, çətinləşdirmək deyil. Həmin yerə bir vedrə su tökün, kifayət edər”*.[3] Cabir ؓ demişdir: “Peyğəmbər ﷺ yumşaq xislətli biri idi, hətta Aişə nə isə istədikdə etiraz etməzdi”.[4]

### ❖ Yumşaqlığı

Uca Allah Peyğəmbərin ﷺ öz əshabına qarşı yumşaqlığından və rəhmdilliyindən bəhs edərək belə buyurur: *“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar”*.[5] Peyğəmbərin ﷺ həyatından bəhs edən kitablarda qeyd olunmuşdur ki, müsəlmanlar Taif şəhərini mühasirəyə aldıqda Səqif qəbiləsi müsəlmanları ox yağışına tutmağa başladı. Bəzi səhabələr belə dedi: “Ey Allahın elçisi, Səqif qəbiləsinin oxları bizi qırdı. Onlar üçün bəddua et!”. Peyğəmbər ﷺ isə əvəzində *“Allahım, Səqif qəbiləsinə hidayət ver!”* – dedi və sonra mühasirəni tərk edərək Məkkəyə doğru yola çıxdı. Bir neçə aydan sonra Səqif qəbiləsi öz

---

[1] Buxari və Müslim.
[2] Buxari və Müslim.
[3] Əhməd rəvayət etmişdir. Hədisin əsli Buxari də mövcuddur.
[4] Müslim.
[5] Ali-İmran, 159.

nümayəndələrini Peyğəmbərin ﷺ yanına göndərdi ki, ona İslam dinini qəbul etmək istədiklərini və qəlblərinin ona qarşı açıq olduqlarını çatdırsın.

### ❖ Həlimliyi

Ənəs ibn Malik ؓ belə nəql etmişdir: "Bədəvi bir ərəb Peyğəmbərə ﷺ yaxınlaşaraq ridasından[1] tutdu və sərt şəkildə özünə tərəf çəkdi. Peyğəmbərin ﷺ boynuna baxdım. Paltarın kənarları dərisində iz buraxmışdı. Bədəvi: "Ey Muhəmməd! Əlində olan Allahın malından mənə bir şeylər ver", – dedi. Peyğəmbər ﷺ ona baxdı və güldü, sonra ona bir şeylər verilməsini əmr etdi".[2] Başqa bir rəvayətdə isə belə qeyd edilir: "Bir yəhudi Peyğəmbərə ﷺ borca bir şey satmışdı. Vədə vaxtı yetişməmiş həmin yəhudi gəlib ondan borcunu tələb etdi. Peyğəmbər ﷺ ona *"hələ vədə vaxtı gəlib çatmayıb"*, – dedikdə yəhudi: "Siz Əbdülmüttəlib övladları daima borcu gecikdirirsiz", – dedi. Səhabələr ona mane olmaq istədikdə Peyğəmbər ﷺ buna icazə vermədi və yəhudinin bu hərəkətinə yalnız həlimliklə qarşılıq verdi. Bunu görən yəhudi belə dedi: Mən onda peyğəmbərliyin bütün əlamətlərini görmüşdüm. Təkcə bir əlamət qalmışdı. O da "cəhalətə həlimliklə qarşılıq vermək" əlaməti idi. Mən də onda bu əlamətin olub-olmadığını bilmək istədim. Daha sonra yəhudi İslamı qəbul etdi".[3]

### ❖ Mərhəməti

Uca Allahın peyğəmbəri Muhəmmədi ﷺ qadın, kişi, mömin, kafir ayırımı etmədən insanlıq aləminə mərhəmət təcəssümü kimi göndərməsi bəndələrinə qarşı lütfü və neməti hesab edilir. Uca Allah buyurur: *"Səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"*.[4] Həmçinin Uca Allah Öz peyğəmbərinə səna edərək belə buyurur: *"Sizə öz içinizdən elə bir Elçi gəldi ki, sizin əziyyətə*

---

[1] Qurşaqdan yuxarı olan bədən geyimi.
[2] Buxari və Müslim.
[3] İbn Hibban rəvayət etmiş, İbn Həcər isə sənədinin səhih olduğunu qeyd etmişdir.
[4] Əl-Ənbiya, 107.

*düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir”.* [1] Aişə anamız demişdir: “Peyğəmbər ﷺ, insanlar əməl edəcəkləri təqdirdə, Uca Allah tərəfindən onlara fərz edilməsin deyə, xoşladığı bəzi işləri tərk edərdi”. Əbu Qətadə əl-Ənsari ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql edir: *“Bəzən elə olur ki, mən namaza durduqda onu uzatmaq istəyirəm və ağlayan uşaq səsi eşidirəm. Uşağın anasına çətin olmasın deyə, namazımı xəfif qılıram”.* [2] Cabir ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *“İnsanlara mərhəmət etməyən kəsə Allah da rəhm etməz”.* [3] Əbu Hureyrə ؓ rəvayət edir ki, bir gün Aqra ibn Habis Peyğəmbərin ﷺ nəvəsi Həsən ibn Əlini ؓ öpdüyünü görür və belə deyir: “Mənim on övladım var, hələ də onlardan birini öpməmişəm”. Bunu eşidən Peyğəmbər ﷺ belə dedi: *“Mərhəmət etməyənə rəhm olunmaz”.* [4] Ənəs ibn Malik ؓ demişdir: “Peyğəmbərdən ﷺ çox uşaqlara daha mərhəmətli olan bir kimsə görmədim”. [5]

### ❖ Təvazökarlığı

Sadəlik onun həyat tablosu, təvazökarlıq isə ruhunun dərinliklərindən qaynaqlanan xisləti idi. Heç vaxt ətrafındakı insanlarla dəbdəbəli həyat sürən rəhbər ədası ilə müamilə etməmişdir. Ən aşağı səviyyəli insanın dəvətinə “yox” deməmiş, ən kiçik hədiyyəni belə geri çevirməmişdir. Məclislərdə gözə girməz və lovğalıq etməzdi. Geyim-keçimində və həyat tərzində son dərəcə təvazökar idi. Ətrafındakı sadə insanlar kimi geyinər və onlardan seçilməzdi. Müsəlman cəmiyyətinin rəhbəri olmasına rəğmən, əshabı ilə birlikdə xəndək qazmış və balta vurmuşdur. Onun heybətindən qorxaraq titrəyən bədəviyə: *“Qorxma, rahat ol! Mən Qureyş qəbiləsindən olan Məkkədə qurudulmuş ət yeyən bir qadının oğluyam”,* – demişdir. Digər rəvayətdə belə deyilir: *“Peyğəmbər ﷺ öz paltarını tikər, ayaqqabısını təmir edər,*

---

[1] Ət-Tovbə, 128.
[2] Buxari.
[3] Müslim.
[4] Müslim.
[5] Müslim.

*qoyununu sağar – bir sözlə, evində iş görən digər kişilər kimi o da işləyər və öz işini özü görərdi”;*[1] *“Kasıb və zəif müsəlmanları ziyarət edər, xəstələrinə baş çəkər və cənazələrində iştirak edərdi”;*[2] *“Yerdə oturar, yerdə yemək yeyər və bir kölənin arpa çörəyi ilə verdiyi ziyafətinə icabət edərdi”.*[3] Osman ﵁ onu bu cür vəsf edərdi: “Həm evdə, həm də səfərdə Peyğəmbər ilə yoldaşlıq etdik. Daima xəstələrimizə baş çəkər, cənazələrimizdə iştirak edər, az və ya çox, daima əlində olanı bizlərlə paylaşardı”.[4]

### ❖ Dürüstlüyü

Uca Allah onu peyğəmbərlik vəzifəsinə təyin etməmişdən öncə də o ﷺ öz qövmü arasında sözündə, əməlində, əxlaqında və həyat tərzində əmin – vəfalı, sadiq bir insan kimi tanınırdı. Bunu dostlarından öncə elə düşmənləri də etiraf edirdi. Dürüstlüyünün ən gözəl nümunələrindən biri Uca Allah tərəfindən Məkkədən Mədinəyə hicrət əmri verildiyi zaman yaşadığı doğma diyardan ayrılmaq istəyərkən özündə olan əmanətləri sahiblərinə qaytarması üçün Əli bin Əbu Talibə ﵁ onun evində qalmasını tapşırmasıdır.

### ❖ Comərdliyi

Ənəs ibn Malik ﵁ demişdir: “İslamı qəbul etmək müqabilində Peyğəmbərdən ﷺ nə istənildisə, imtina etmədi. Hətta İslamı qəbul etmək üçün yanına gələn bir nəfərə vadi dolusu qoyun sürüsü verdi. Həmin kəs də öz qövmünün yanına qayıdıb: “Ey qövm, İslamı qəbul edin! Çünki Muhəmməd kasıblayacağından ehtiyat etməyəcək şəkildə mal-dövlət paylayır”. Ənəs ibn Malik ﵁ deyir ki, əgər bir kəs işin əvvəlində yalnız dünya mənfəəti əldə etmək üçün İslamı qəbul edirdisə, qısa bir müddət keçdikdən sonra İslam dini onun üçün dünya və içindəkilərdən daha dəyərli və daha sevimli bir hala gəlirdi”.[5] Cubeyr b. Mutim ﵁ rəvayət edir ki,

---

[1] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Hakim rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Təbərani rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[4] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[5] Müslim.

Peyğəmbərlə ﷺ birlikdə Huneyn döyüşündən qayıdarkən bədəvi ərəblər ondan qənimət malları istəməyə başladılar. O qədər israr etdilər ki, hətta Peyğəmbər ﷺ bir ağacın altına girməyə məcbur oldu. Ridası – qurşaqdan yuxarı olan libası ağacın tikanlarına ilişdi. Peyğəmbər ﷺ bir an dayanıb, sonra *"mənə ridamı verin"*, – dedi və belə söylədi: *"Allaha and olsun ki, əgər bu ağacın tikanları qədər mal-qaram olsaydı, onların hamısını aranızda bölərdim və mənim paxıl, yalançı və qorxaq olmadığımı görərdiniz"*. [1] Peyğəmbərin ﷺ əliaçıqlığına dəlalət edən misallardan biri də Cabir ibn Abdullahın ﷺ bu sözüdür: "Peyğəmbərdən ﷺ nə istənildisə, heç vaxt cavabında "xeyr" demədi".[2] Əbu Səid əl-Xudri ﷺ belə demişdir: "Bir dəstə ənsar Peyğəmbərdən ﷺ maddi dəstək istədi. Allah elçisi ﷺ istədiklərini onlara verdi. Sonra bir daha istədilər, yenə də verdi. Bir müddət keçdikdən sonra yenə istədilər, Peyğəmbər ﷺ yenə də onlara istədiklərini verdi, hətta əlində olan-olmaz da tükəndi və belə dedi: *"Sizdən əsirgəyə biləcəyim bir şeyim qalmadı. Kim insanlardan bir şey istəməzsə, Allah onun ehtiyacını ödəyər. Kim gözütox olarsa, Allah onu ehtiyacsız – zəngin edər"*.[3]

### ❖ Əliaçıqlığı

İnsanlara yardım etmək, onlara hədiyyə vermək Peyğəmbərə ﷺ ən xoş gələn əməllərdən biri idi. Əlində olanı kiməsə hədiyyə etməkdə onun tayı-bərabəri yox idi. Kiməsə əl tutduqda keçirtdiyi sevinc hissi yardım etdiyi adamın sevincindən daha çox olardı. Bəzən yeməyini, bəzən isə paltarını ehtiyacı olan kəslə bölüşər, onun ehtiyacını öz ehtiyacından üstün tutardı. İnsanların ən comərdi idi. Allahın verdiyini az saymaz, verdiyindən artığını da istəməzdi. Az və ya çox kim ondan nə isə istəsəydi, mütləq verər, verdikdə də malının azalmasından və kasıblıqdan qorxmayan kəs kimi verərdi. Bəzən hədiyyə, bəzən bəxşiş olaraq, bəzən isə sədəqə kimi verərdi. Bəzən bir şey alar, daha sonra həm aldığı malın

---

[1] Buxari.
[2] Buxari.
[3] Buxari və Müslim.

pulunu verər, həm də malın özünü satıcıya qaytarardı. Necə ki Cabirin ﷺ dəvəsini də məhz bu şəkildə özünə qaytarmışdı. Bəzən isə borca bir şey alar, qaytardıqda isə artıqlaması ilə qaytarardı. Bu xüsusda belə demişdir: "*Sizin ən xeyirliniz borcunu ən gözəl şəkildə ödəyəninizdir*".[1] Həmçinin bəzən bir şey satın alar, pulunu isə malın dəyərindən artıq verərdi. Ona hədiyyə verən kəslərə comərdliyin və yaxşılığın bir nümunəsi olaraq daha çox və daha dəyərli hədiyyə ilə qarşılıq verərdi.

### ❖ Səbri və əziyyətlərə qarşı dözümü

Məkkə şəhərində dəvətinin ilk dönəmlərində ona ﷺ qarşı qövmünün səfeh insanları tərəfindən təzyiq artdıqda dəstək əldə edəcəyi ümidi ilə Taif şəhərinə getdi. Çünki o ﷺ, İslamın yayılması üçün münbit bir yer axtarırdı. Lakin öz qövmündən görmədiyi əzab-əziyyəti Taif əhlindən gördü. Qan dabanlarından axanacan onu daş-qalaq etməyə başladılar və dəvəsi üzərində özündə getdi. Özünə gəldikdə Seylul-Kəbir deyilən yerdə, Taifdən təxmini on beş kilometr kənarda yerləşən Qarnus-Səalibdə dəvəsinin üzərində idi. Birdən dağlar mələyinin ona səsləndiyini eşitdi: "Ey Muhəmməd, istəsən, Məkkənin dağlarından ikisini onların üzərinə salım". Peyğəmbər ﷺ isə belə dedi: *"Əksinə, Uca Allahın onların belindən yalnız Özünə ibadət edəcək nəsillər çıxaracağına ümid edirəm"*.[2] Hədisdə qeyd olunan iki dağ – Queyqəan və Əbu Qubeys dağlarıdır.

### ❖ Güclü iradəsi

Peyğəmbər ﷺ Məkkədə ikən Qureyşin kafirlərindən hər cür əziyyət görmüş və hər növ əzaba qatlanmışdı. Aclıqdan qarnına daş bağladığı, din uğrunda əziyyət görüb bədənindən qanlar axdığı və hicrət zamanı mağarada gizləndiyi günlər olmuşdur. Lakin düşmənlərinin hər bir hiyləsini böyük əzm və iradə ilə qarşılamışdır. Qarşılaşdığı çətinliklərin ən ağırı Şibi Əbu Talib deyilən yerdə yaxınları ilə birlikdə üç il mühasirədə qalması və

---

[1] Buxari.
[2] Buxari və Müslim.

doğma, sevimli diyarı olan Məkkədən çıxarılması olmuşdur. Mühacirətdə olduğu vaxtda belə, düşmənləri ondan əl çəkməmiş və onunla savaşmışdır. Münafiqlər daima ona qarşı məkrli planlar cızmışdır. Sağlığında altı övladını itirmişdi. Hətta düşmənləri tərəfindən təqib edildiyi zamanlarda belə, çətinliklər qarşısında əzilməyəcək qədər böyük bir şəxsiyyət idi. Sıxıntı və çətinliklərə qarşı dözdü və səbir etdi. Güclünün yanında zəiflik göstərmədi, söz sahibi olanların yanında tərəddüd etmədi. Ənəs ibn Malik ﵁ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *“Allah yolunda – din uğrunda heç kəsin görmədiyi təhdidləri gördüm və heç kəsin çəkmədiyi əziyyətləri çəkdim. Bilal ilə birlikdə fasiləsiz otuz gün ac qaldığım vaxtlar oldu. Həmin vaxt Bilalın qoltuğu altında saxladığı azacıq qidadan başqa yanımızda yeməyə bir şeyimiz yox idi”.*[1]

### ❖ Şücaəti

Peyğəmbərin ﷺ şücaəti dillər əzbəri olmuş və zərbi-məsəl halına gəlmişdi. Belə ki, ən çətin və sıxıntılı anlarda sabit qəlbi və dərin imanı ilə sinəsini qabağa verərdi. Düşmən qoşunları və küfrün sərkərdələri silah-sursatlarının və hərbi təczihatlarının çox olmasına baxmayaraq, onunla üzbəüz gəlməkdən dəfələrlə boyun qaçırmışdılar. Bir gün Mədinə əhli şəhərdə vahiməli bir səs eşidib qorxuya düşdü, sonra şəhər camaatı həmin səsə doğru üz tutdu, onlar bu çaşqınlıq içərisində olduqları halda, Peyğəmbər ﷺ at belində, yəhərsiz vəziyyətdə və əlində qılınc onları şəhər kənarında qarşılayaraq onlara: *“Qorxmayın, sakit olun!”*, – deyirdi.[2] Bir nəfər Bəradan ﵁: “Ey Əbu Umara, siz Huneyn günü Peyğəmbəri ﷺ qoyub qaçdınızmı?” Bəra belə cavab verdi: “Peyğəmbərin ﷺ qaçmadığına şahidlik edirəm. Həvazin əhli müsəlman ordusunu ox yağışına tutdu və beləcə onlar məğlubiyyətin astanasına gəldilər”. Belə bir vəziyyətdə Peyğəmbər ﷺ ağ qatırının üzərində üzünü düşmənə tərəf tutaraq: *“Mən peyğəmbərəm, bunda heç bir yalan*

---

[1] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Buxari və Müslim

*yoxdur! Mən Əbdülmüttəlibin oğluyam!”* – deyirdi.[1] Təsəvvür edin, döyüşün ən qızğın yerində müsəlman ordusu çaşbaş qalmış bir vəziyyətdə Peyğəmbər ﷺ döyüş üçün yararlı olmayan qatırını düşmənə tərəf yönəltmiş və onu güdən düşmənlərinin üzünə öz adını hayqıraraq meydan oxumuşdur. Bundan böyük cəsarət və qəhrəmanlıq nümunəsi ola bilərmi?! Əli ibn Əbu Talib ﷺ ən şücaətli səhabələrdən biri olmasına rəğmən belə demişdir: “İki dəstə üzbəüz gəldiyi və döyüş qızışdığı zaman biz Peyğəmbər ﷺ ilə qorunurduq. Belə ki, bizim içimizdən düşmənə ondan daha yaxın duran kimsə yox idi”.[2]

### ❖ Qayğısı

Allahın dinini təbliğ etməyin qayğısı Peyğəmbərin ﷺ qəlbini elə bürümüş və din üçün bütün həyatını fəda etmək istəyi onun nəfsinin dərinliklərində elə iz buraxmışdır ki, bütün varlığı, güc və qüvvəsi, düşüncə və fikirləri ilə bu dinə bağlanmışdı. Peyğəmbərliyindən sonra iyirmi üç il keşməkeşli həyat yaşadı. Bütün əziyyətləri: gecəsi və gündüzü, gediş-gəlişi, alış-verişi, aşkar və gizlin hər halı, gülməsi və ağlaması, cihadı və təbliğatı, yardımları və xeyirxah əməlləri – bir sözlə, bütün həyatı bu dinə xidmət üçün idi. Nəsihət edər, şəriətə müxalif olan münkər əməllərə etirazını bildirər, əyriləri düzəldər, küsülüləri barışdırar, yol göstərər və dini təbliğ edərdi. Din üçün görülə bilinəcək heç bir işi tərk etməz və heç bir fürsəti əldən buraxmazdı. Dünya işləri onu ən böyük qayğısından yayındıra bilməzdi. O ﷺ elə özünün dediyi kimi idi. Belə demişdir: *“Kimin dərdi, qayğısı yalnız Axirət olarsa, Allah onun dünya qayğılarını bərqərar edər, işlərini sahmana salar. Kimin bütün fikri və zikri dünya qayğıları olarsa, onun sonda hansı yerdə ölməsinin Allah üçün bir fərqi olmaz”.*[3]

---

[1] Buxari və Müslim.
[2] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] İbn Macə rəvayət etmiş, Əlbani həsən olduğunu demişdir.

### ❖ Nikbinliyi

Gözəl söz Allah barədə yaxşı zənnə aparan bir yoldur. Xoş söz qəlbi ələ alan, insanın ruhuna sevinc bəxş edən və bir çox xeyirlərə səbəb olan bir amildir. Bax Peyğəmbər ﷺ öz əshabını bu ruhda tərbiyələndirmişdi. Ənəs ibn Malik ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: *"Keçici xəstəlik*[1] *və uğursuzluq anlayışı yoxdur. Gözəl fal – xeyirə yozmaq mənim çox xoşuma gəlir"*. Sual verildi ki, fal nədir?. O da cavabında: *"Fal – gözəl sözdür... Hər birinizin eşitdiyi xoş sözlərdir"*, – dedi.[2] Bu üslubla o, əshabının ruhunda Allaha təvəkkül və Ona güvən ilə tam əmin bir şəkildə durmadan irəliləmək və qətiyyət əzmini bərqərar edir, möhkəmləndirirdi. Hüdeybiyyə sülhündə Qureyş qəbiləsi tərəfindən müsəlmanlarla müqavilə bağlamaq üçün göndərilən Süheyl ibn Amrın gəlişini də Peyğəmbər ﷺ xeyirə yozmuş və əshabına belə demişdir: *"Sizin işiniz asanlaşdı"*.[3]

### ❖ Qəzəblənməsi

Peyğəmbər ﷺ insanların ona qarşı olan əzab-əziyyətlərini geniş qəlb ilə, yumşaqlıqla və gözəl əxlaqla qarşılayardı. O, heç vaxt öz nəfsinə görə qəzəblənməz və intiqam almazdı. Lakin Uca Allahın qoyduğu hədlər pozulduğunda Allah üçün olan qəzəbi çox şiddətli olardı. Aişə anamız demişdir: "Peyğəmbər ﷺ bəzi işlərə icazə vermiş, insanlardan bəziləri isə icazə verilən həmin işlərdən uzaq durmuşdur. Bu xəbər Allah rəsuluna ﷺ çatdıqda elə şəkildə qəzəbləndi ki, qəzəbi üzündən bilinirdi. Sonra belə dedi: *"Bəzi insanlara nə olub ki, hətta mənim üçün icazə olan işlərdən belə uzaq durmağa çalışırlar. Allaha and olsun ki, mən içinizdə Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxanam"*.[4] Əbu Məsud ﵁ rəvayət edir ki, bir kişi Peyğəmbərə ﷺ belə dedi: "Ey Allahın elçisi, filankəs namazı çox uzun qıldığına görə mən camaat

---

[1] Yəni Uca Allahın izni olmadan özbaşına keçici olan xəstəlik anlayışı yoxdur.
[2] Buxari və Müslim.
[3] Çünki Süheyl adı "asanlıq" mənasını verir. Hədisi imam Buxari rəvayət etmişdir.
[4] Buxari və Müslim.

namazında iştirak edə bilmirəm”. Bunu eşidən Peyğəmbər ﷺ elə qəzəbləndi ki, mən onu həmin gün qəzəbləndiyi kimi heç vaxt qəzəblənən görməmişdim. Daha sonra Peyğəmbər ﷺ belə dedi: *“Ey insanlar, sizlərdən bəziləriniz insanları ürküdürsünüz. Kim camaat namazında insanlara imam dursa, namazı çox uzatmasın. Çünki camaatın içində xəstə, yaşlı və zəif olan insanlar vardır”.*[1]

### ❖ Aza qane olması

Peyğəmbərin ﷺ zahidliyinə və insanların əlində olan fani dünya malına göz dikmədiyinə görə hər kəs onu sevmiş və ona doğru gəlmişdir. O ﷺ, əlində olana riza göstərər və heç kəsdən heç nə istəməzdi. Hətta müsəlmanların döyüş zamanı ələ keçirdikləri və onun yanına gətirdikləri qənimətdən heç nə götürməz, hamısını əshabı arasında paylaşardı. Aza qane olmasının nümunələrindən biri onun ﷺ həsir üzərində yatması idi. Bəzən əshabı onun bədənində həsirin buraxdığı izləri görər və bundan çox təsirlənərdi. Bu səbəbdən, onun üçün şəninə layiq yumşaq yataq düzəltmək istədikdə onlara belə demişdir: *“Mənim dünya ilə bir işim yoxdur. Mən bu dünyada ağac altında kölgələnib, sonra yoluna davam edən bir yolçu misalındayam”.*[2] Həyatın hər sahəsində insanlara örnək olacaq biri idi. Onunla bir məclisdə oturan, söhbət edən, hətta münaqişə edən elə kəs olmazdı ki, sonda Peyğəmbərin ﷺ sözü ilə qəlbi xoşnud olmasın. Hətta səhabələr belə demişdir: Peyğəmbər ﷺ bir şeyi qadağan etdikdə biz “kaş ona icazə verərdi” deməzdik, yaxud bir şeyə icazə verdikdə “kaş onu haram edərdi” söyləməzdik. İmam Buxarinin “Səhih” əsərində qeyd olunan rəvayətə əsasən, Ədiy ibn Hatim ət-Taiy رضي الله عنه belə demişdir: Mədinəyə gəldikdə Peyğəmbərin ﷺ yanına getdim, məni evinə apardı. Yolda yaşlı zəif bir qarı ilə qarşılaşdıq, Peyğəmbəri ﷺ dayandırdı, Allah elçisi ﷺ də onun ehtiyacını dinləmək üçün uzun müddət yolda dayanıb onunla söhbət etdi. Daha sonra yol boyunca kasıblığından şikayət edən bir nəfərlə, habelə çarəsi kəsilib qəriblikdə qalan bir müsafirlə qarşılaşdıq. Peyğəmbər ﷺ onların

---

[1] Buxari və Müslim.
[2] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.

hər birini səbirlə dinləyir, onlara yol göstərir və təsəlli verirdi. Sonra yola davam etdik, evinə daxil olduqda içi xurma lifləri ilə doldurulmuş dəridən bir balış götürdü və mənə tərəf yönəltdi. Mən onun üzərində, o ﷺ isə yerdə oturdu. Öz-özümə belə dedim: “Allaha and olsun ki, bu, padşahların yaşam tərzi deyil!” Sonra Peyğəmbər ﷺ belə dedi: *“Mən bilirəm, sənin İslamı qəbul etməyinə nə mane olur. Sən fikirləşirsən ki, mənə ərəblərin yurd-yuvalarından didərgin saldığı zəif və gücsüz insanlar tabe olur. Canım əlində olan Allaha and olsun ki, O bu işi mütləq tamamlayacaqdır. Əgər ömrün çatsa, Hira diyarından qadının Allahdan başqa heç kəsdən qorxmadan tək başına dəvəsi ilə gəlib Kəbəni tavaf etdiyini görəcəksən. Kisra ibn Hurmuzun xəzinələri fəth ediləcək və mal o qədər çox olacaq ki, insan sədəqə verməyə kasıb adam tapa bilməyəcəkdir”.* Ədiy رضي الله عنه deyir ki, mən İslamı qəbul etdikdə Peyğəmbərin ﷺ çöhrəsində sevinc əlamətlərini gördüm.

### ❖ Dünyaya qarşı zahidliyi

Peyğəmbər ﷺ özündən qabaq başqalarını düşünər, insanlara bol-bol yardımlar edərdi. Bunun müqabilində bəzən elə olurdu ki, bir neçə ay öz evində qazanın altı yanmaz, isti yemək yeməzdi. Şam torpaqlarınacan Ərəb yarımadasına sahib olmasına rəğmən, dünya malına heç bir dəyər verməzdi. Noman ibn Bəşir رضي الله عنه demişdir: “Bəzən elə olurdu ki, Peyğəmbər ﷺ aclığını aradan qaldıracaq quru xurma belə tapa bilmirdi”.[1] İbn Abbas رضي الله عنه belə demişdir: “Peyğəmbər ﷺ gecələr boyunca özü də, xanımları da ac yatar, axşam yeməyi tapmazdılar. Çox vaxt yedikləri də arpa çörəyi olmuşdur”.[2] Amr ibn əl-Haris رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ vəfat etdiyi vaxt özündən sonra nə qızıl, nə gümüş, nə kölə, nə cariyə, nə də hər hansı bir şey buraxmışdır. Yalnız ağ bir qatırı ilə, silahını və müsafirlərə sədəqə olaraq vəqf etdiyi bir ərazi buraxmışdır”.[3] Aişə anamız belə demişdir: “Əgər Muhəmmədin ﷺ

---

[1] Hakim rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Əhməd və Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Buxari.

ailəsi gün ərzində iki dəfə yemək yeyərdisə, o ikisindən biri mütləq xurma olardı”.[1] Əgər yeməyə bir şey tapmazdısa, günorta vaxtı nafilə oruc tutmağa niyyət edərdi, yeməyə bir şey tapdıqda isə oruc tutmazdı.[2] Onun ﷺ bu halı dünya naz-nemətlərinə dəyər verməməsinin bir göstəricisi idi.

[1] Buxari.
[2] Müslim.

## ✤ Beşinci hissə ✤

### ❖ Namazı

Peyğəmbər ﷺ namazlarında Rəbbinin önündə tam bir xuşu və mütilik içərisində durar, bütün əzalarına sükunət və rahatlıq çökərdi. Rüku edərkən xuşu ilə rüku edər, səcdəyə qapandıqda da mütiliklə qapanardı. Beləcə ibadəti ilə rahatlıq əldə edər, bütün qayğılarını unudar və üzərində olan ağırlığı, yorğunluğu yerə qoyardı. Bilala ﵁ azan verməsi üçün belə deyərdi: *"Ey Bilal, namazla bizi rahatlandır"*. Həmçinin belə demişdir: *"Gözümün nuru namazda verildi"*. Bir çətinliklə qarşılaşdıqda namaza yönələr, sıxıntı və çətinliklərinin aradan qalxması üçün namazla Allahdan yardım diləyərdi. Son nəfəsində belə ümmətinə namazı tövsiyə etmiş və belə demişdir: *"Namaza və əlinizin altında olan kölələrə diqqət yetirin!"* Bütün bunlarla yanaşı camaata namaz qıldırarkən namazını qısaldar, özü tək qıldıqda isə uzadardı.[1] İl ərzində gündəlik davamiyyətli olaraq fərz namazları ilə birlikdə qıldığı namazlarının sayı təqribən qırx rükət olardı.

### ❖ Peyğəmbərin ﷺ gecə namazı

Aişə anamız demişdir: "Bir gecə yuxudan oyanıb gördüm ki, Peyğəmbər ﷺ yatağında yoxdur. İlk öncə elə zənn etdim ki, yoldaşlarından hansınınsa yanına gedib. Daha sonra əlimlə yatağı yoxladıqda əlim onun ayağına toxundu. Səcdə halında idi və bu cür dua edirdi: *"Allahım, qəzəbindən rizana, cəzalandırmandan əfvinə, Səndən Sənə sığınıram. Sənə səna etməkdə acizəm. Sən Özün Özünə səna etdiyin kimisən"*. Bunu eşidən Aişə belə dedi: "Anam, atam sənə fəda olsun! Gör mən nə hayda, sən nə haydasan!"[2] Muğirə ibn Şöbə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ ayaqları şişənə qədər namaz qılardı. Ona: "Ey Allahın rəsulu! Allah sənin keçmiş və gələcək günahlarını bağışladığı halda, nə üçün bu qədər ibadət edirsən?" deyildikdə belə cavab vermişdi:

---

[1] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Müslim.

*“Məgər Allaha şükr edən bir bəndə olmayımmı?”*[1] Aişə anamız demişdir: “Peyğəmbər ﷺ gecələr on bir rükət namaz qılar və onun sonunu tək rükətlə bitirərdi. Namazını bitirdikdən sonra sağ çiyni üstünə uzanardı”; “Peyğəmbər ﷺ hər hansı bir namazı qıldıqda onu davamiyyətli qılmağı sevərdi. Əgər yatıb qalsaydı, yaxud bədəni ağrıdığı üçün qalxa bilməsəydi, gündüz vaxtı onun əvəzinə on iki rükət qılardı. Mən Peyğəmbərin ﷺ bütün gecəni səhərəcən namaz qılıb, Quran oxuduğunu heç görmədim”.[2]

### ❖ Orucu

Peyğəmbər ﷺ doqquz il Ramazan orucu tutmuşdur. Ramazan ayında digər aylara nisbətdə daha çox ibadət edərdi. Bəzən bu ayda daha çox ibadət edə bilməsi üçün iftar etmədən iki və ya üç gün dalbadal oruc tutardı. Ramazan ayında xeyir əməlləri, sədəqəni, Quran tilavətini, etikafı, namaz və zikri çoxaldardı. Nafilə – könüllü oruclara gəldikdə isə, ümumiyyətlə, onun orucsuz qaldığı, oruc tutmadığı ay olmazdı. Həftənin birinci gününün oruclarını daima tutar, Aşura orucunu heç vaxt tərk etməzdi. Səhih hədislərdə sabit olduğu kimi, bəzən gündüz vaxtı yeməyə bir şey tapmadıqda günorta vaxtı nafilə oruca niyyət edərdi.

### ❖ Həcci və ümrəsi

Peyğəmbər ﷺ Mədinə şəhərinə hicrət etməmişdən öncə iki dəfə ümrə etmişdir.[3] Hicrətdən sonra yalnız bir dəfə həcc etmişdir. Bu həcc “vida həcci” adlanır və Uca Allahın həcc ibadətini vacib buyurmasından sonra, yəni hicrətin 9-cu ilində baş tutmuşdur. Uca Allah həcc ibadətini əmr etdikdən sonra Peyğəmbər ﷺ təxirə salmadan həmən həcc ibadətini yerinə yetirmiş və həmin günü insanlara xitab edərək belə demişdir: *“Həcc ayinlərini məndən öyrənin!”*[4] Peyğəmbər ﷺ vida həccindən öncəki il həcc rəhbəri kimi Əbu Bəkri təyin etmiş və ona insanlara belə xitab etməsini

---

[1] Buxari və Müslim.
[2] Buxari.
[3] Tirmizi rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[4] Hədisi Müslim və Beyhəqi rəvayət etmişdir. Hədisin bu ləfzi Beyhəqiyə aiddir.

əmr etmişdir: *“Daha bu ildən sonra heç bir müşrik həcc etməyəcək. Allahın evi Kəbə çılpaq şəkildə tavaf edilməyəcək”*. Əbu Bəkrin vida həccindən öncəki il həcc rəhbəri təyin edilməsi və insanlara bu mesajı ötürməsinin səbəbi bu idi ki, qoy onlar Peyğəmbərin ﷺ növbəti il insanlarla birgə həcc ibadətini Allahın şəriətinə uyğun və cahiliyyə ərəblərinin adətlərindən uzaq bir şəkildə edəcəyini bilsinlər. Peyğəmbər ﷺ ömründə dörd dəfə ümrə etmişdir. Həcci ilə birlikdə olan ümrəsi istisna, qalanlarının hamısını Zilqədə ayında etmişdir.[1]

### ❖ Duası

Peyğəmbər ﷺ dualarında müxtəsər, lakin dolğun mənalı ibarələrdən istifadə edərdi. Necə ki bu barədə Aişə anamız belə demişdir: “Peyğəmbər ﷺ müxtəsər və dolğun mənalı ləfzlərlə dua etməyi sevər və başqa formada dua etməzdi”.[2] Həmçinin duada əzmkar olmaq onun vərdişi idi. Belə ki, dualarında son dərəcə qərarlı olar, qəbul olacağına yəqinliklə inanar, şəkk və tərəddüd etməzdi. Əksinə, ümidini kəsmədən və dualarının qəbul olacağı inancı ilə qərarlı bir şəkildə dua edərdi. Ən çox etdiyi dualarından biri bu idi: *“Allahım! Üzüntü və kədərdən, acizlik və tənbəllikdən, xəsislik və qorxaqlıqdan, borc altında qalmaqdan və insanların (məni) sıxışdırmasından Sənə sığınıram!”*[3] Həmçinin qocalığın zillətindən, dünya fitnəsindən və qəbir əzabından daima Allaha sığınardı.[4] Yerinə, məqamına uyğun bir şəkildə hər fürsətdə dua etməyə hərisliyi onun vərdişi idi. Belə ki, öz malını Allah yolunda xərcləyənlərin malı üçün Allahdan bərəkət umar, sıxıntı və çətinlikdə olanların qəm-qüssədən qurtulması üçün dua edər, ona sual verən və elm öyrənənlər üçün də Allahdan bilik və savad

---

[1] Buxari və Müslim.
[2] Əbu Davud rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[3] Duanın ərəbcə mətni:

اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الهَمِّ وَالحَزَنِ وَالعَجْزِ وَالكَسَلِ وَالبُخْلِ وَالجُبْنِ وَضَلَعِ الدَّيْنِ وَقَهْرِ الرِّجَالِ

Transkripsiyası: “Allahummə inni əuzu bikə minəl-həmmi vəl-həzəni, vəl-aczi vəl-kəsəli, vəl-buxli vəl-cubni, və dələid-deyni və qahrir-rical”.
[4] Buxari.

diləyərdi. Dualarından biri də Ənəs ibn Malikin ﵁ rəvayətində qeyd edilən bu duadır: “Peyğəmbərin ﷺ ən çox etdiyi dua *«Rəbbimiz, bizə dünya həyatında da, Axirət diyarında da xeyir bəxş et və bizləri Cəhənnəm əzabından qoru»* duası idi”.[1]

### ❖ Allahı zikr etməsi

Peyğəmbər ﷺ Rəbbini zikr etməkdə ən kamil insan idi. Belə ki, oturarkən, uzanarkən, ayaq üstə olarkən, yürüdükdə, minik üzərində olduqda, səfərdə və evdə, bir yerdə qonaqladıqda – bir sözlə, daima və hər nəfəsində Uca Allahı yad edərdi. Səhər yuxudan oyandıqda belə deyərdi: *“Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun! Dönüşümüz də yalnız Onadır!”*[2] Sübh namazını qıldıqdan sonra elə namaz qıldığı yerdə oturar və günəş çıxanacan Rəbbini zikr edərdi.[3] Evə girərkən, evdən çıxarkən, yemək yedikdə, su içdikdə, paltarını geyindikdə və yoldaşı ilə cinsi münasibətdən öncə, habelə ayaqyoluna girərkən və təharətdən çıxarkən daima Rəbbini zikr edərdi. Bəlalar və fəlakət anında Allahın zikrinə sığınardı. Onu ﷺ qəm-qüssə bürüdükdə isə Ənəs ibn Malikin ﵁ xəbər verdiyi kimi belə deyərdi: *“Ey əbədi Yaşayan, ey Qəyyum – hər şeyi ayaq üstə tutan! Sənin mərhəmətinlə kömək diləyirəm”.*[4] Axşam yatağına çəkildikdə də

---

[1] Buxari və Müslim.
Duanın ərəbcə mətni:

رَبَّنا آتِنا فِي الدُّنْيا حَسَنَةً، وَفِي الآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النارِ

Transkripsiyası: “Rabbənə ətinə fid-dunyə hasənətən və fil-axirəti hasənətən və qina azəbən-nar”.

[2] Buxari və Müslim.
Duanın ərəbcə mətni:

الحمدُ للهِ الذي أحيانا بعدَما أماتَنا وإليه النشورُ

Transkripsiyası: “Əlhəmdulilləhil-ləzi əhyənə bə'də mə əmətənə və ileyhin-nuşur”.

[3] Müslim.

[4] Tirmizi rəvayət etmiş, Əlbani isə həsən olduğunu qeyd etmişdir.
Duanın ərəbcə mətni:

يا حيُّ يا قيُّومُ برحمتِك أستغيثُ

Transkripsiyası: “Ya Həyyu, ya Qayyum! Bi-rahmətikə əstəğiysu”.

Rəbbini zikr edərdi. Onun ﷺ dua və zikrlərdə tutduğu yoluna, sünnətinə diqqət yetirdikdə görürük ki, Allahı zikr etmək həyatının hər sahəsini ehtiva etmişdir. Aişə anamız belə demişdir: "Peyğəmbər ﷺ daima – hər halıyla Allahı zikr edərdi".[1] Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"Allaha and olsun ki, mən gün ərzində yetmiş dəfədən çox Allahdan bağışlanma diləyib Ona tövbə edirəm".*[2] Abdullah İbn Ömər ؓ belə demişdir: *"Bir məclisdə Peyğəmbərin ﷺ yüz dəfə «Rəbbim məni bağışla, tövbəmi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, rəhmlisən» dediyini sayardıq".*[3] Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *"Subhanəllah, vəlhəmdulilləh, və lə iləhə illəllah, vallahu əkbər (Allah bütün nöqsanlardan bəridir, həmd-səna yalnız Ona məxsusdur, Ondan başqa ibadətə layiq olan haqq məbud yoxdur və Allah ən ucadır) – deməyim mənim üçün günəşin üzərinə doğduğu hər şeydən (yəni dünya və onun içindəkilərdən) daha sevimlidir".*[4]

### ❖ Peyğəmbərin ﷺ Allah qorxusu

Abdullah ibn Şixxir ؓ demişdir: "Peyğəmbər ﷺ namaz qıldığı halda onun yanına gəldim. Ağlamaqdan sinəsində qaynayan qazan səsi kimi səs eşidilirdi".[5] Yəni qazanda qaynayan su səsi kimi səs eşidilirdi. Abdullah ibn Məsud ؓ belə demişdir: "Mən Peyğəmbər ﷺ üçün ən-Nisa surəsini oxumağa başladım. Nəhayət: *«Məgər onlar Allaha və Axirət gününə iman gətirib Allahın onlara verdiyi ruzidən Onun yolunda xərcləsəydilər, nə itirərdilər? Allah onların hər bir işini bilir. Həqiqətən, Allah zərrə qədər də olsa, zülm etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah bunu artırar və Öz tərəfindən böyük mükafat verər. Biz hər ümmətdən*

---

[1] Müslim.
[2] Buxari.
[3] Əbu Davud rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
<u>Duanın ərəbcə mətni</u>:

رَبِّ اغفِرْ لي وتُبْ عليَّ، إنك أنت التوابُ الرحيمُ

Transkripsiyası: "Rabbiğfirli və tub aleyyə, innəkə əntət-Təvvabur-Rahim".
[4] Müslim.
[5] Əbu Davud rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.

*bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?»*[1] ayəsinə çatdıqda gördüm ki, Peyğəmbərin ﷺ gözündən yaş axır".[2]

### ❖ Allah barədə gözəl zənni və Ona qarşı olan güvəni

Peyğəmbərimiz ﷺ insanlar içində Allahın lütfünə və mərhəmətinə ən çox güvənən kəs olduğuna görə Uca Allaha ən yaxın bəndə və Onun qatında insanların ən təmizi idi. Beləcə hər bir xeyrə və fəzilətə nail olmuşdur. Daima öz əshabına və onlardan sonra gələcək nəsillərə Uca Allah barədə gözəl zəndə olmağı nəsihət edərdi. Cabir ؓ demişdir: Peyğəmbərin ﷺ vəfatından üç gün öncə belə dediyini eşitdim: *"Sizlərdən hər kəs Uca Allah barədə yaxşı zəndə olduğu halda bu dünyanı tərk etsin!"*[3] Bəzən bu dəyərli nəsihəti öz əshabına sətiraltı ötürərdi. Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyi nəql edir: *"Uca Allah belə demişdir: Mən quluma qarşı Mənim barəmdə olduğu zəndəyəm. O məni yad etdikcə onunlayam. O məni öz nəfsində yad etdikdə Mən də onu öz nəfsimdə yad edərəm. O məni bir toplum içində yad etsə, Mən də onu daha xeyirli bir toplum içində yad edərəm"*.[4] Hicrət zamanı Qureyş qəbiləsi Peyğəmbəri ﷺ və dostu Əbu Bəkri ؓ hər tərəfdə axtarmağa başladıqda sonda onların bu uzun axtarışları Sour dağındakı mağaranın yanında bitdi və beləcə mağaranın ağzında durdular. Peyğəmbərlə ﷺ Əbu Bəkr ؓ mağaranın içində başları üstündə duran müşriklərin söhbətlərini eşidirdilər. Lakin Uca Allah kafirlərin gözlərini kor etmişdi deyə, onlar Peyğəmbəri ﷺ və Əbu Bəkri ؓ görə bilmirdilər. Bu məqamda Əbu Bəkr belə dedi: "Ey Allahın elçisi, əgər onlardan biri ayağı altına baxsa, bizi görəcək". Peyğəmbər ﷺ isə ona belə cavab verdi: *"Ey Əbu Bəkr, üçüncüləri Allah olan iki nəfər barədə sənin zənnin nədir?!... Üzülmə, Allah bizimlədir!"*[5] Uca Allah bu hadisə barədə Öz kərim

[1] Ən-Nisa, 39-41.
[2] Buxari və Müslim.
[3] Müslim.
[4] Buxari və Müslim.
[5] Buxari və Müslim.

kitabında belə buyurur: *“Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir”.*[1] Allah barədə gözəl zənninin və Ona qarşı olan güvəninin nümunələrindən biri də Zətur-Riqa döyüşü zamanı baş vermiş hadisədir. Belə ki, həmin gün günorta vaxtı gəldikdə hava çox isti olmuş və insanlar ağac altında kölgələnmək üçün pərən-pərən düşmüşdülər. Peyğəmbər ﷺ də öz növbəsində bir ağacın kölgəsinə çəkilmiş, silahını ağacdan asaraq altında yuxulamışdır. Bu ərəfədə müşriklərdən biri gizlincə gələrək Peyğəmbərin ﷺ qılıncını əlinə götürüb sinəsi üzərində durmuş və “ey Muhəmməd, de görüm indi səni kim mənim əlimdən qurtaracaq?” – demişdir. Peyğəmbər ﷺ Rəbbinə güvənərək qəlbi tam rahat bir şəkildə: *“Allah!”* deyə cavab verdikdə bu kəlmə müşrikin qəlbinə qorxu salmış və qılınc əlindən düşmüşdü. Peyğəmbər ﷺ də həmən qılıncı əlinə alaraq onu yerə yıxmış və sinəsi üzərində duraraq: *“De görüm indi səni kim mənim əlimdən qurtaracaq?”* – demişdir. Bədəvi ərəb: “Ey Muhəmməd, sən intiqam alma, əfv et!” – dedi. Peyğəmbər isə: *“Şahidlik edirsənmi ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və məndə Onun elçisiyəm?”* Bədəvi dedi ki, xeyr! Lakin sənə söz verirəm ki, bundan sonra nə səninlə savaşacam, nə də ki səninlə savaşan qövmün tərəfində olacam. Peyğəmbər ﷺ onu buraxmış, o da öz qövmünün yanına gedərək “mən ən xeyirli insanın yanından gəlirəm”, – demişdir.[2]

### ❖ Allaha qarşı yəqin imanı və Ona təvəkkülü

Peyğəmbər ﷺ qəti şəkildə inanırdı ki, Uca Allah onu yardımsız buraxmayacaq və onu hər kəsdən üstün edəcəkdir. Ən sərt təqiblər

[1] Ət-Tovbə, 40.
[2] Buxari.

və əziyyətlər gördüyü vaxtlarda belə, Allahın zəfər müjdəsindən və vədindən bir an belə olsa, ümidini üzmədi. Necə də hər işində Rəbbinə güvənməsin ki, Uca Allah daima onunla bərabər idi?! Axı Rəbbi ona bu ayəni nazil etmişdir: *“Sən yalnız Allaha təvəkkül et! Çünki sən açıq-aydın haqq yoldasan”*.[1] İmam Əhməd “Müsnəd” əsərində həsən sənədlə rəvayət etmişdir ki, Peyğəmbər ﷺ əshabına şəhər kənarında düşməndən müdafiə üçün xəndək qazmağı əmr etdiyi gün xəndəyi qazarkən külüng zərbəsi ilə qırılmayan sərt bir qayaya rast gəldilər və bu barədə Peyğəmbərə ﷺ xəbər verdilər. Peyğəmbər ﷺ gəldi, üst paltarını çıxardaraq qaya olan yerə endi. Külüngü əlinə götürüb *“bismilləh”* deyərək qayaya bir zərbə vurdu və üçdə birini qırdı. Belə dedi: *“Allahu əkbər! Mənə Şamın açarları verildi (yəni Şam diyarı fəth ediləcək). Allaha and olsun ki, mən bu durduğum yerdən onun qırmızı qəsrlərini görürəm”*. Sonra *“bismilləh”* deyərək qayaya ikinci bir zərbə vurdu və yenə üçdə biri qırıldı. Belə dedi: *“Allahu əkbər! Fars diyarı fəth ediləcək. Allaha and olsun ki, mən bu durduğum yerdən onun ağ qəsrlərini, habelə Mədaini görürəm”*. Sonra *“bismilləh”* deyərək qayaya üçüncü bir zərbə vurdu və qaya tamamilə qırıldı. Belə dedi: *“Allahu əkbər! Yəmən diyarı fəth ediləcək. Allaha and olsun ki, mən bu durduğum yerdən Sənanın qapılarını görürəm”*. Uca Allah Qurani-Kərimdə dörd yerdə Peyğəmbərinə ﷺ Ona təvəkkül etməsini əmr etmiş, o ﷺ da öz Rəbbinə ən gözəl və layiqli bir şəkildə təvəkkül etmişdir. İmam Buxari İbn Abbasın رضي الله عنه belə dediyini rəvayət edir: *“Həsbunəllah və niməl-vəkil”* (Allah bizə bəs edər, O nə gözəl yardımçıdır!) sözünü İbrahim عليه السلام oda atıldıqda, Muhəmməd ﷺ isə *“Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!”*[2] – deyildikdə demişdir. Onu da qeyd edək ki, Peyğəmbər ﷺ Rəbbinə təvəkkül etməsi ilə yanaşı səbəblərdən tutunmağı da yaddan çıxartmamışdır. Belə ki, Uhud müharibəsinə ön və arxadan geyinilmiş iki zirehlə çıxmışdır. O heç vaxt döyüş meydadına silahsız çıxmazdı. Əksinə, daima öz tədbirini görərdi. Həmçinin Məkkədən Mədinəyə hicrət edəcəkləri vaxt onlara yolda

---

[1] Ən-Nəml, 79.
[2] Ali-İmran, 173.

bələdçilik etməsi üçün müşrik bir kişini icarəyə götürmüşdür. Cihada, həcc və ümrə səfərlərinə çıxmamışdan qabaq özü ilə yol azuqəsi götürərdi. O ﷺ, Uca Allaha təvəkkül edənlərin öndəri idi. Uca Allah onunla bütün bəşəriyyətə doğru yolu göstərmiş, habelə onu bütün insanların şərindən qorumuşdur.

## Altıncı hissə

### ❖ Ailəsinə qarşı xoş münasibəti

Peyğəmbər ﷺ xanımlarına qarşı son dərəcə mehriban davranar, övladları və nəvələrinə qarşı şəfqətli olar, onlara daima ikram edərdi. Qızı Fatimə yanına gəldikdə onun üçün ayağa qalxar, əlindən tutar və öz yerində oturdardı. Rəvayət olunur ki, o ﷺ, nəvələri Həsən və Hüseynlə رضي الله عنهما oynayarkən onlara dil çıxardar, habelə əyilib onları kürəyinə mindirərdi. Həmçinin Həsən və Hüseynin رضي الله عنهما əllərindən tutar, ayaqlarını öz ayaqları üstünə qoyar və *"haydı dırmanın, dırmanın"* deyərək onları sinəsinə qədər qaldırardı. Xanımlarına qarşı olan xoş münasibətinə bir nümunə kimi Ənəs ibn Malikin رضي الله عنه bu rəvayətini qeyd etmək olar: Deməli, Peyğəmbərin ﷺ yaxşı şorba bişirən fars bir qonşusu var idi. Bir gün qonşusu onun üçün yemək hazırlayıb evinə dəvət etdi. Peyğəmbər ﷺ *"bu da mənimlə olacaq?"* – deyib Aişə anamıza işarə etdi. Qonşusu "xeyr" dedikdə Peyğəmbər ﷺ də "xeyr" dedi. Beləcə qonşusu onu iki, ya üç dəfə dəvət etdi. Yenə də Peyğəmbər ﷺ Aişə anamıza işarə edərək *"bəs o?"* – dedi. Qonşusu bu dəfə "bəli" dedikdə Peyğəmbər ﷺ və xanımı Aişə bir-birlərini itələyə-itələyə (zarafatlaşaraq) onun evinə getdilər.[1] Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ xanımlarından birinin evində ikən əshabından bir dəstə onun qonağı idi. Möminlərin analarından biri (yəni Peyğəmbərin ﷺ digər xanımı) yemək dolusu bir qabı onlara göndərdi. Qonaqlar həmin yeməyi yeyib tamamladıqdan həmən sonra Peyğəmbərin ﷺ evində olduğu xanımı özünün hazırladığı yeməyi gətirdi və əvvəlki qabı götürüb iki hissəyə böldü. Bunu görən Peyğəmbər ﷺ belə dedi: *"Ananız qısqandı!"* Daha sonra Peyğəmbər ﷺ sağlam olan ikinci qabı götürüb qabı qırılan xanımına apardı, qırıq qabı isə həmin evdə saxladı.[2] Numan ibn Bəşir رضي الله عنه rəvayət edir ki, bir gün Əbu Bəkr رضي الله عنه Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Həmin vaxt Aişə anamızın səsinin Peyğəmbərin ﷺ səsindən yuxarı qalxdığını eşitdi. Həmən

---
[1] Müslim.
[2] Buxari.

içəri daxil olub şillə vurmaq üçün əlini qaldırdı və “bir daha səni səsini Peyğəmbərin ﷺ səsindən yuxarı qaldıran görməyim” – dedi. Bu an Allah rəsulu ﷺ Əbu Bəkr ؓ Aişəni vurmasın deyə, ata ilə qızının arasına girdi və belə dedi: *“Ey Əbu Bəkr, bu gündən etibarən mən səndən üzr istəməyəcəm”*. Əbu Bəkr ؓ çölə çıxdı və Peyğəmbər ﷺ Aişənin könlünü almağa başladı və belə dedi: *“Özün gördün ki, mən sizin aranıza girdim və mane oldum”*. Sonra Əbu Bəkr ؓ geri qayıtdı və Peyğəmbərin ﷺ Aişə anamızla zarafatlaşdığını gördü və belə dedi: “Ey Allahın rəsulu, öz hərbinizə məni şərik etdiyiniz kimi, sülhünüzə də məni şərik edin”.[1]

### ❖ Zarafatlaşması

Peyğəmbər ﷺ əshabı ilə birlikdə olduqda dilxoşluq edərək onlarla zarafatlaşardı. Ənəs ibn Malik ؓ rəvayət edir ki, bədəvi ərəblərdən Zahir adında çirkin bir kimsə var idi. Daima səhradan – qaldıqları yerdən Peyğəmbərə ﷺ hədiyyələr gətirərdi. Peyğəmbər də ona səhrada lazım olan şeyləri şəhərdən (Mədinədən) təşkil edərdi. Peyğəmbər ﷺ onun xətrini çox istəyərdi və belə deyərdi: *“Zahir bizim bədəvimiz, biz isə onun şəhərli dostlarıyıq”*. Bir gün Peyğəmbər ﷺ ticarətlə məşğul olduğu halda onun yanına getdi. Peyğəmbər ﷺ o görmədiyi halda arxadan onu qucaqladı. O isə belə dedi: “Kimdir bu? Məni burax!” Dönüb arxaya baxdıqda bildi ki, bu, Peyğəmbərdir ﷺ. Onu tanıdıqda belini Peyğəmbərin ﷺ sinəsinə daha çox söykəməyə başladı. Peyğəmbər ﷺ *“bu köləni kim alar?”* – dedikdə, o da: “Ey Allahın elçisi, Allaha and olsun ki, məni alacaq bir kimsə tapa bilməzsən”, – dedi. Peyğəmbər ﷺ isə cavabında belə dedi: *“Lakin sən Allahın yanında dəyəri yüksək olan bir kimsəsən”*.[2] Əbu Hureyrə ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *“Mən zarafat edirəm, lakin haqdan başqa heç nə demirəm”*.[3] Peyğəmbər ﷺ öz xanımlarının könlünü xoş etməkdən ötrü evlilik həyatının sıxıntı və çətinliklərini öz zarafatları ilə

[1] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.
[2] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.
[3] Tirmizi rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.

yüngülləşdirər, bəzən isə yoldaşları ilə qaçaraq yarışardı. Aişə anamız rəvayət edir ki, səfərlərin birində Peyğəmbər ﷺ ilə birlikdə çıxmışdım. O zaman mən hələ gənc və cavan idim. Çox kök də deyildim. O, insanlara: "Siz irəli gedin" deyə buyurdu. Onlar da irəli getdikdən sonra mənə: "Gəl yarışaq", – dedi. Mən də onunla yarışdım və onu keçdim. Növbəti səfərlərin birində isə artıq mən kökəlmişdim. Bu dəfə də o, insanlara: "Siz irəli gedin" deyə buyurdu. Onlar da irəli getdikdən sonra mənə: "Gəl yarışaq", – dedi. Bu səfər o məni keçdi və gülməyə başladı, sonra isə belə dedi: *"Bax bu, əvvəlkinin əvəzidir".*[1]

### ❖ Müəllimliyi

Muaviyə ibn Hakəmin ؓ Peyğəmbər ﷺ haqda belə dediyi nəql olunmuşdur: *"Nə ondan ﷺ öncə, nə də sonra ondan daha yaxşı təlim keçən müəllim görmədim".*[2] İnsanlara dinlərini öyrədərkən onu dinləyən hər bir fərdə diqqət ayırar və hər kəsin haqqını ödəyərdi. Hətta önündə əyləşən və onu dinləyənlərin hər biri elə zənn edərdi ki, məclisdə olanlar içərisində Peyğəmbərə ﷺ ən yaxın və ən sevimli olan məhz odur. Ona sual verənlərə, ondan nə isə öyrənmək istəyənlərə, hətta fəhmi zəif olanlara qarşı belə son dərəcə təvazökar idi. Bir sözlə, insanların düşüncə və qavrama qabiliyyətlərində olan fərqlilikləri daim nəzərə alardı. Hətta əshabından bəzilərinə insanlara dini təlim etmək tapşırığını vermişdi. Özü isə insanlara dinin əhkamlarını öyrədərkən onu dinləyənlərin ruhunda iz buraxacaq, onların ağıl və düşüncələrinə münasib, habelə zehinlərində qalıcı olacaq ən gözəl və ən üstün metodlardan istifadə edərdi. Həmçinin danışığı yorucu olmasın deyə, söhbətini rəngarəng edərdi. Bəzən məsəllər çəkər, bəzən qissələr nəql edərdi. Bəzi hallarda dialoq və sual-cavab metodundan istifadə edərdi və önündəkinin zəkasını və bilik səviyyəsini ortaya çıxarmağa çalışardı. Bəzən nə isə başa salmaqdan ötrü yerə cizgilər cızar, yaxud danışarkən and içərdi. Bəzən həm sözlü, həm də əl hərəkətləri ilə izah edər, yaxud

---

[1] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu qeyd etmişlər.
[2] Müslim.

önündə baş verənləri iqrar etməsi və ya susqunluğu ilə anlatmağa çalışardı. Bir sözlə, tarix onun bir müəllim kimi də kamil şəxsiyyət olduğuna şahid olmuş və onun barədə belə deyilmişdir: "O öz əshabını elə formada yetişdirmişdi ki, əgər onun ﷺ təlim-tərbiyə verdiyi əshabından ﷺ başqa bir möcüzəsi olmasaydı, peyğəmbərliyinin isbatı üçün bu da kifayət edərdi".

### ❖ Qeyri-müsəlmanlara qarşı rəftarı

Peyğəmbər ﷺ hər irqdən və rəngdən olan insanlarla münasibətində bir mükəmməllik nümunəsi idi, hətta qeyri-müsəlmanlarla rəftarda belə onların qəlblərini İslama isindirəcək şəkildə son dərəcə nəzakətlə davranar, onlarla ticarət əlaqəsi və s. münasibətlər qurardı. Vəfat etdiyi vaxt qalxanı otuz saa arpa[1] müqabilində bir yəhudinin evində girov idi. Qeyri-müsəlmanları İslama dəvət etmək üçün onlara məktublar yazdıqda son dərəcə yumşaq və bəlağətli bir üslub seçərdi. Həmçinin qeyri-müsəlmanlar tərəfindən ona verilən hədiyyələri geri çevirməz, qəbul edərdi. Qeyri-müsəlmanlarla münasibətdə tolerantlığının nümunələrindən biri də onlar üçün dua etməsidir. Əshabından bəziləri ona ﷺ: "Dous qəbiləsi İslamı qəbul etməkdən imtina etmiş və kafir olmuşdu, onlar üçün bəddua et", – dedikdə o ﷺ belə cavab vermişdir: *"Allahım, Dous qəbiləsinə hidayət ver və onları bizim yanımıza gətir!"* Həmçinin Səqif qəbiləsi üçün də dua edərək *"Allahım, Səqif qəbiləsinə hidayət ver!"* – demişdir. Nəticədə həmin qəbilələr İslamı qəbul etmiş və onların içərisindən saleh insanlar, alimlər və sərkərdələr çıxmışdır. Mədinədə ilk İslam cəmiyyəti qurulduğu vaxt orada yəhudilər, müşriklər və münafiqlər də yaşayırdı. Müsəlmanlarla əhd bağlayan kafirlər barədə belə demişdir: *"Hər kim müsəlmanlarla əhd bağlamış bir kafirə zülm edər, onu alçaldar, gücündən artıq bir şey tələb edər və könül xoşluğu olmadan ondan nə isə götürərsə, Qiyamət günü onun haqqını mən tələb edərəm".*[2]

---

[1] 30 saa təxmini 75-80 kiloqrama bərabərdir.
[2] Əbu Davud rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.

### ❖ Məzlumları müdafiə etməsi

Peyğəmbər ﷺ zülmü qadağan edər və hər bir işində ədalətli olmağı əsas götürərdi. İrqindən və rəngindən asılı olmayaraq böyük, kiçik, qadın, kişi demədən hər məzlumun yanında olardı. Nəinki insanları, hətta heyvanları da müdafiə edərdi. Belə ki, Məkkə yaxınlığında Hüdeybiyyə deyilən yerdə dəvəsi Qasva hərəkət etməmiş və diz üstə yerə çökmüşdü. Bunu görən əshabı "Qasva inadkarlıq edir", – deməyə başladı. Peyğəmbər ﷺ isə onlara belə cavab verdi: *"Qasva inadkarlıq etməz! Bu onun adəti deyildir. Lakin (bir zamanlar Məkkəyə daxil olmaq istəyən) fili tutub saxlayan Allah indi də onu saxladı"*.[1]

### ❖ Hədiyyə verməsi

Hədiyyə vermək qəlbləri fəth edən, insanlar arasında sevgi və məhəbbəti yayan, qəlbdəki kin və küdurəti söküb çıxardan bir amil olduğuna görə Peyğəmbər ﷺ də insanların qəlblərini hədiyyə verməklə ələ almağı və bəxşişlər ikram etməklə qəlbləri bir-birinə yaxınlaşdırmağı bacarmış və bu məsələdə özünü əziyyətə salmadan onların halına uyğun şəkildə hərəkət etmişdir. Çox vaxt öz əshabına hədiyyələr verər və onları bununla xoşhal edib sevindirərdi. Belə ki, geyindiyi əbasını Kəb ibn Zuheyrə رضي الله عنه, Zülfüqar adlı qılıncını Əliyə رضي الله عنه, bir cübbəsini Ömərə رضي الله عنه və birini də Usaməyə رضي الله عنه hədiyyə etmişdir. Bəzən isə qida məhsullarından, yemək və s. hədiyyə verər, hətta əshabına tövsiyə edərdi ki, yemək bişirdikdə onun suyunu, şorbasını bir az artıq etsinlər ki, qonşularına da ondan bir pay ayırsınlar. Əbu Zər رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini nəql edir: *"Heç kəs etdiyi xeyir əməllərdən nəyisə kiçik görməsin. Ət aldıqda, qazan asdıqda onun şorbasını bir az artıq et və ondan qonşuna da pay ayır"*.[2] Həmçinin belə demişdir: *"Hədiyyələşin ki, bir-birinizi sevəsiniz"*.[3] Qəlbləri İslama isinişən bəzi ərəb qəbilələrinin əşraflarına və əsilzadələrinə bəzən yüz dəvə, yaxud vadi dolusu qoyun və bu kimi bahalı hədiyyələr verərdi.

---

[1] Buxari.
[2] Tirmizi rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.
[3] Əbu Yalə və Beyhəqi rəvayət etmiş, Əlbani həsən olduğunu demişdir.

Ona verilən hədiyyəni, adətən, geri qaytarmaz və əvəzində ondan da dəyərli hədiyyə verərdi. Verilən hədiyyəni qəbul etməyəcəyi təqdirdə isə üzrxahlıq edərdi. Necə ki Səb ibn Cəssəmə ov ətini hədiyyə etdikdə ona belə demişdir: *"Ehramlı olmasaydıq, onu geri qaytarmaz və mütləq qəbul edərdik"*.[1]

### ❖ Tərifləməsi

Bu geniş qəlbli və nəcib Peyğəmbərin ﷺ həyatına baxan hər kəs görər ki, o, heç vaxt heç kəsə qarşı laqeyd olmamış və layiq olan hər kəsə tərif və sənadan, hörmət və izzətdən öz nəsibini vermişdir. Onun kəlamları əshabının qəlbinə şəfalı məlhəm kimi yayılar, ona itaət edənlərin ruhunda iz buraxar və onu dinləyənləri daha çox xeyirxah əməllər görməyə sövq edərdi. Bax onun yolu və üslubu belə idi. O ﷺ belə deyərdi: *"Kim sizə yaxşılıq etsə, onun əvəzini qaytarın. Verməyə nə isə tapmasanız, o zaman belə deyin: Allah səni xeyirlə mükafatlandırsın!"* Əbu Səid əl-Xudri ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"İnsanlar içində malı və yoldaşlığı ilə mənə ən çox dəstək olan Əbu Bəkr olmuşdur. Əgər insanlar içindən kimisə özümə xəlil – can dostu seçsəydim, Əbu Bəkri seçərdim"*.[2] Sələmə ibn Əkva ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: *"Bu gün döyüş meydanında süvarilərimizin ən yaxşısı Əbu Qətadə, piyadalarımızın ən yaxşısı isə Sələmə idi"*.[3] Əbu Useyd ؓ Peyğəmbərin ﷺ belə dediyini nəql edir: *"Ənsar qəbilələrinin ən xeyirlisi Bənu Nəccardır"*.[4] Ənsarlar – Mədinəli səhabələr İslama yardım etmək üçün önə çıxdıqlarına və Məkkəli mühacirlərə öz diyarlarında sığınacaq verdiklərinə görə Peyğəmbər ﷺ onlar barədə belə demişdir: *"Əgər bütün insanlar bir cığırla, Ənsanlar da başqa bir cığırla yürüsəydilər, mən Ənsarların cığırı ilə yürüyərdim. Əgər Məkkədən Mədinəyə*

---

[1] Buxari.
[2] Müslim.
[3] Müslim.
[4] Müslim.

*hicrət olmasaydı, mən Ənsarlardan olardım. Allahım, Ənsara, onların övladlarına və övladlarının balalarına rəhm et!”*[1]

## ❖ Nəsihət və tövsiyələri

Peyğəmbərin ﷺ bütün nəsihətləri özündə böyük faydaları ehtiva edən dəyərli nəsihətlər idi. O ﷺ, Allahın Kitabına tabeçiliyi, anaya qarşı xeyirxah övlad olmağı, qonşu və qadın haqlarını qorumağı nəsihət etmişdir. Can üstə olarkən ümmətinə namazı qorumağı vəsiyyət etmişdir. İbn Məsud ؓ demişdir ki, kim üzərində Peyğəmbərin ﷺ möhürü olan vəsiyyətinə baxmaq istəyirsə, əl-Ənam surəsindən bu üç ayəni oxusun: *“De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, anlayasınız. Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız. Bu Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, pis əməllərdən çəkinəsiniz”* (əl-Ənam, 151-153). [2] Nəsihətlərindən biri Əbu Zərin ؓ rəvayət etdiyi hədisdi. O deyir ki, *“can dostum ﷺ mənə yeddi xüsusu – zəif və miskin insanları sevməyi, özümdən yuxarı olanlara deyil, aşağı olanlara baxmağı, qohumlar arxa çevirsələr belə, onlarla əlaqələri möhkəm tutmağı, heç kəsdən heç nə istəməməyi, acı da olsa, daima haqqı deməyi, Allah üçün heç kəsin qınağından qorxmamağı və “lə haulə və lə*

---

[1] Əhməd rəvayət etmiş, Əlbani isə səhih olduğunu qeyd etmişdir.
[2] Hədisi imam Beyhəqi “Şuabul-iman” əsərində həsən sənədlə rəvayət etmişdir.

*quvvətə illə billəh" (güc və qüvvət yalnız Allaha məxsusdur) zikrini çox dilə gətirməyi əmr etdi. Çünki bu, Ərşin altındakı xəzinədən bir parçadır".*[1] Ubadə ibn Samit ﵁ Peyğəmbərin ﷺ belə dediyi nəql edir: *"Altı xüsusda mənə zəmanət verin, mən də Cənnətə daxil olmağı sizə zəmanət verim: Danışdıqda doğru danışın, vəd etdikdə vədə sadiq qalın, sizə verilən əmanəti sahiblərinə qaytarın, övrət yerinizi, gözünüzü və əlinizi haramdan qoruyun!"* [2] Cabir ﵁ demişdir: Peyğəmbərin ﷺ vəfatından üç gün öncə belə dediyini eşitdim: *"Sizlərdən hər kəs Uca Allah barədə yaxşı zəndə olduğu halda bu dünyanı tərk etsin!"*[3]

❁ ❁ ❁

[1] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.
[2] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.
[3] Müslim.

## ❧ SON SÖZ ❧

**❖ Əgər Peyğəmbərimiz ﷺ səni görsəydi, sevəcəkdi**

Bir gün Peyğəmbər ﷺ belə dedi: *“Qardaşlarımı görməyi çox istərdim”*. Əshabı dedi: “Ey Allahın elçisi, məgər bizlər sənin qardaşların deyilik?” Peyğəmbər belə cavab verdi: *“Siz mənim əshabımsız (yəni dostlarımsız). Qardaşlarım isə məni görmədikləri halda mənə iman edənlərdir”*.[1]

Peyğəmbər səni özlədiyi kimi, sən də onu özləyirsənmi?

**❖ Peyğəmbərimiz Muhəmmədə ﷺ dəstək olmağın 10 yolu**

1. Peyğəmbəri ﷺ tanıtmaq və onun həyatının gözəlliyini hər kəsə çatdırmaq;
2. Peyğəmbərin ﷺ həyatını oxumaq, onun sünnətini – yolunu özümüzə rəhbər tutmaq və həyatımızın hər sahəsində tətbiq etmək;
3. Ailə münasibətlərində, qohum-qonşu ilə əlaqələrdə onun davranışlarını rəhbər tutmaq;
4. Onun əshabını sevmək. Çünki onlar ؓ peyğəmbərlik mirası ilə birbaşa bağlı olan və onun irsini bizlərə ötürən kəslərdir;
5. Övladlarımızı onun sevgisi üzərində böyütmək;
6. Özümüzü və övladlarımızı onun təşvid etdiyi saleh əməllər və əxlaqi keyfiyyətlər üzərində tərbiyələndirmək;
7. Onu və şərəfini qorumaq, sünnətini müdafiə etmək;
8. Alimləri sevmək və onlaraq hörmət etmək. Çünki onların qədir-qiyməti ucadır və onlar peyğəmbərlik mirası ilə əlaqəli olan insanlardır;
9. İnsanlar arasında Peyğəmbərin ﷺ sünnətinin yayılmasına görə sevinmək və bu yolda iş görmək;
10. Peyğəmbərin ﷺ hörmətini və şənini daima uca tutmaq, habelə onu öz canımızdan, övladlarımızdan və ailəmizdən daha çox sevmək.

[1] Əhməd rəvayət etmiş, Əlbani səhih olduğunu demişdir.

### ❖ Peyğəmbərin ﷺ üzərimizdə olan haqları:

1. Uca Allah Qurani-Kərimdə bizə əmr etdiyi kimi ona ﷺ iman etmək. Rəbbimiz belə buyurur: *"Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz"*[1];

2. Ona ﷺ itaət etmək, əmrinə tabe olmaq, onun izi ilə getmək, sünnətinə əməl etmək və onu özümüzə rəhbər tutmaq, habelə insanların din adına özlərindən uydurduqları xurafatlardan və bidət olan əməllərdən uzaq durmaq;

3. Peyğəmbərə ﷺ hörmət etmək, onun şənini, qədir-qiymətini uca tutmaq və onu hər kəsdən çox sevmək;

4. Peyğəmbərin ﷺ sözünü hər kəsin sözündən önə çəkmək, keçmişə və gələcəyə dair verdiyi hər bir qeybi xəbərlərində onu təsdiqləmək;

5. Bütün işlərdə Peyğəmbərin ﷺ sünnətini, gətirdiyi şəriətini rəhbər tutmaq və onun hər bir hökmünə razı olmaq.Uca Allah bu xüsusda belə buyurur: *"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar"*[2];

6. Peyğəmbərin ﷺ əhli-beytinə layiq olduqları şəkildə hörmət etmək, onun nəslindən olan saleh insanlara xeyirxah davranıb, onların qədir-qiymətlərini bilmək.

Aşkarda və gizlində, əvvəldə və sonda Uca Allaha həmd və səna, qulu və elçisi Muhəmmədə, onun ailəsinə və bütün əshabına Allahın salam-duası və xeyir-bərəkəti olsun!

❁ ❁ ❁

---

[1] Əl-Əraf, 158.
[2] Ən-Nisa, 65.

## MÜNDƏRİCAT

**Müqəddimə**
Qərb alimlərinin sözləri........................................................... 4
Peyğəmbərlərin ağası ilə birlikdə..............................................5

**Birinci hissə:**
Adı və nəsəbi...........................................................................7
Uşaqlıq dövrü...........................................................................7
Peyğəmbərlik missiyası........................................................... 8
Ona ﷺ nazil olmuş kitab........................................................ 9
Quranda yad edilməsi............................................................. 9
Dini təbliğatı və Mədinə şəhərinə hicrəti.....................................10
Hərbi yürüşləri və savaşları.................................................... 10
Padşahlara yazdığı məktubları................................................ 12
Vəfatı.......................................................................................12

**İkinci hissə:**
Zövcələri.................................................................................. 14
Övladları.................................................................................. 15
Əmiləri və bibiləri.....................................................................15
Şairləri.....................................................................................15
Müəzzinləri.............................................................................. 15
Xidmətçiləri............................................................................. 15
Valiləri və əmirləri....................................................................16

**Üçüncü hissə:**
Fəziləti və bərəkəti...................................................................17
Gözəlliyi...................................................................................18
Peyğəmbərlik möhürü...............................................................19
Ətri və qoxusu..........................................................................19
Təmizliyi və təmizlənməsi..........................................................20
Sürməsi.................................................................................... 20
Misvakı.................................................................................... 21
Üzüyü.......................................................................................21
Silahları....................................................................................21

Minikləri........................................................................................ 21
Geyimi........................................................................................... 21
İçkisi..............................................................................................22
Qidası............................................................................................ 22
Danışıq tərzi..................................................................................23
Bəlağəti və fəsahəti.......................................................................23
Gülüşü və təbəssümü.................................................................... 24
Yürüş tərzi......................................................................................26
Yatış və duruşu.............................................................................. 26
Alqı-satqısı.....................................................................................27

**Dördüncü hissə:**

Həyası............................................................................................ 28
Mülayimliyi................................................................................... 28
Yumşaqlığı.....................................................................................29
Həlimliyi........................................................................................ 30
Mərhəməti......................................................................................30
Təvazökarlığı................................................................................. 31
Dürüstlüyü..................................................................................... 32
Comərdliyi..................................................................................... 32
Əliaçıqlığı...................................................................................... 33
Səbri və əziyyətlərə qarşı dözümü.................................................34
Güclü iradəsi..................................................................................34
Şücaəti............................................................................................35
Qayğısı...........................................................................................36
Nikbinliyi....................................................................................... 37
Qəzəblənməsi.................................................................................37
Aza qane olması.............................................................................38
Dünyaya qarşı zahidliyi................................................................. 39

**Beşinci hissə:**

Namazı...........................................................................................41
Peyğəmbərin ﷺ gecə namazı..........................................................41
Orucu..............................................................................................42
Həcci və ümrəsi..............................................................................42
Duası.............................................................................................. 43

Allahı zikr etməsi....................................................................44
Peyğəmbərin ﷺ Allah qorxusu..................................................45
Allah barədə gözəl zənni və Ona qarşı olan güvəni.......................46
Allaha qarşı yəqin imanı və Ona təvəkkülü..................................47

**Altıncı hissə:**

Ailəsinə qarşı xoş münasibəti.................................................... 50
Zarafatlaşması..........................................................................51
Müəllimliyi.............................................................................. 52
Qeyri-müsəlmanlara qarşı rəftarı...................................................53
Məzlumları müdafiə etməsi......................................................... 54
Hədiyyə verməsi....................................................................... 54
Tərifləməsi...............................................................................55
Nəsihət və tövsiyələri.................................................................56

**Son söz**

Əgər Peyğəmbərimiz ﷺ səni görsəydi, sevəcəkdi..........................58
Peyğəmbərimiz Muhəmmədə ﷺ dəstək olmağın 10 yolu..............58
Peyğəmbərin ﷺ üzərimizdə olan haqları.......................................59